RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 203 (8226) BAZAR, 15 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 101 yaşlı “Azərbaycan”

Azərbaycan xalqının milli dövlət quruculuğu və azərbaycançılıq uğrunda mübarizə tarixində xüsusi yeri olan “Azərbaycan” qəzeti bu gün ömrünün 101-ci ilinə qədəm qoyur. Ümummilli Lider Heydər Əliyevin sözləri ilə desək, “Vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti kimi nəşr olunmuş “Azərbaycan” xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir”.

“Azərbaycan” qəzeti ötən əsrin əvvəllərində çox mürəkkəb və ziddiyyətli zamanda - 15 sentyabr 1918-ci ildə Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində nəşrə başlamışdır. Dörd nömrəsi Gəncədə işıq üzü görən qəzet sonradan fəaliyyətini Bakıda davam etdirmiş, cümhuriyyət qurucuları və istiqlal mücahidləri ilə çiyin-çiyinə addımlayaraq milli azadlıq mübarizəsinin ön sıralarında olmuşdur. Ölkədə savadsızlığın hökm sürdüyü bir dövrdə cümhuriyyəti təmsil edən qəzet Milli Şura iclasları və parlament yığıncaqlarında qəbul edilən qərarların, təklif və tövsiyələrin, qanunların, digər rəsmi xəbərlərin ictimaiyyətə çatdırılmasında əvəzsiz rol oynayırdı. Xalqımızın müstəqillik istəyinin, hüquq və azadlıqlarının ictimai şüurda möhkəmlənməsində, milli inkişaf və tərəqqiyə gedən yolda üzərinə düşən vəzifəni şərəflə yerinə yetirirdi. Azərbaycan və rus dillərində çıxan bu qəzetdə dövlət quruculuğu, daxili və xarici siyasət, milli özünüdərk, ermənilərin azərbaycanlılara qarşı törətdiyi qətliamlar, Qarabağda apardıqları separatçı hərəkətlər, soyqırımı siyasəti genişliyi ilə öz əksini tapırdı. Qəzetin redaksiya kollektivini başda Üzeyir bəy Hacıbəyli olmaqla dövrün ictimai və milli təfəkkürlü, vətənpərvər və millət təəssübkeşli ziyalılar təşkil edirdi. Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məhəmmədzadə, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Firidun bəy Köçərli, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə, Şəfiqə xanım Əfəndizadə, Fərhad Ağazadə, Əmin Abid, Əliabbas Müznib, Nəsib bəy Yusifbəyli, Hacı Kərim Sanılı, Salman Mümtaz, Qarabəy Qarabəyov, Əhməd Pepinov, Abbas Səhhət, Adil xan Ziyadxanov, Nağı bəy Şeyxzamanlı, Hüseyn Bayqara və başqaları qəzet səhifələrində tez-tez Azərbaycanın işıqlı gələcəyi, xalqın qayğı və dövləti problemləri ilə bağlı çıxışlar edirdilər.

Ardı 8-ci səh.

# Azadlıq savaşının «Azərbaycan»ı

Tarixin çətin, ziddiyyətli və mübahisələrin meydan müharibələrində həll olunduğu Birinci Dünya savaşının sonunda “Azərbaycan” yarandı. Təkcə adının çəkilməsi uğrunda böyük mücadilə aparılan gənc, müstəqil Azərbaycan dövlətinin rəmzlərini səhifələrinə, sütunlarına daşıyan “Azərbaycan” ciddi çətinliklərlə ərsəyə gətiriləndə Qafqaz İslam Ordusu qoşunları, milli orkestr Güzdəkdən Bakıya nümayişə hazırlaşırdı.




Böyük zəfəri və qələbə sevincini sentyabrın 15-də “Azərbaycan” xəbər verdi. Mətbəədə kağız və hürufat çatışmazlığı qələbə müjdəli qəzetin ilk sayının çapını ləngidə bilmədi.

“Azərbaycan”ın bu sayı xalqın azadlıq ruhunu əks etdirən yazılarla, hərbi faktlar və informasiyalarla zəngindir. İlk sayda xeyli təbrik teleqramları dərc olunub ki, bu təbriknamələrdən ən önəmlisi Azərbaycan milli hökumətinin baş naziri Fətəli Xan Xoyskiyə məxsusdur. F.Xoyski Qafqaz İslam Ordusu komandanlığına əsgər və zabitlərə öz səmimi minnətdarlığını bildirirdi.

“Azərbaycan” sentyabrın 19-da dərc olunan ikinci sayında Türkiyədə danışıqlar aparan Milli Şura sədri M.Ə.Rəsulzadənin baş nazir Fətəli Xan Xoyskiyə ünvanladığı təbrik teleqramını xalqa çatdırdı: “Paytaxtımızın istibdaddan dolayı təht-idarə alilərində bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərinin ixtilası üçün sarsılmaz bir qələyi mətin olması ümidi ilə bütün arkadaşlarımızla öpüşürüz”.

Ardı 8-ci səh.

# Zəfər günü

“Bismillahir-rəhmanir-rəhim! Bakı şəhəri 15.09.1918-ci il saat 09-a işləmiş igid ordu hissələrimiz tərəfindən azad olundu”.

1918-ci il sentyabrın 15-də ilk nömrəsi işıq üzü görən “Azərbaycan” qəzetində Bakının azad edilməsi haqqında Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın teleqramı dərc edilir...

Və xalqa Bakının xilasının Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfər olduğunu müjdələyir...

Türk ordusunun azərbaycanlı silahlı birləşmələrlə birgə Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb olur. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil edir. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirilir. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru Paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim edir.

Amma hələ bu sevincli zəfər günlərinə çox qalmışdı və təəssüf ki, hələ xalqı qarşıda çox zülmlər, qətllər, soyqırımları gözləyirdi...

## Qafqazla bağlı planların mərkəzində zəngin neft mədənləri olan Azərbaycan dururdu

1918-ci il... Birinci Dünya müharibəsi bitmək üzrədir. Şimalda çar rejimi dağılmış, bolşeviklər hakimiyyəti ələ keçirmişdilər. Qafqazda bolşeviklərin basqısı hər keçən gün daha da artırdı. Qafqazla bağlı hazırlanan bütün planların mərkəzində isə zəngin neft mədənləri olan Azərbaycan dururdu.

Məqsəd bu ərazidən türk, müsəlman əhalini təmizləmək və neft yataqlarını ələ keçirmək idi. İstila planları çox keçmədən həyata keçirilməyə başlandı. Bolşeviklər erməni dəstələrini silahlandırdılar. Bir tərəfdə ağır silahlarla təchiz olunmuş bolşevik ordusu və erməni birləşmələri, digər tərəfdə isə əliyalın və tənha qalmış azərbaycanlılar...

Elə buna görə də düşmən gün keçdikcə daha da azğınlaşırdı. Təsadüfi deyildi ki, 30 mart 1918-ci ildə bolşevik ordusu və erməni birləşmələri Bakı ətrafında kütləvi qətllər törətməyə başladı. Onlar uşaq, qadın, qoca demədən hər kəsi hədəfə almışdı və bunun isə bir adı var idi: soyqırımı. Təkcə martın 30-dan aprelin 1-nə kimi Bakıda 15 mindən çox əhali qətlə yetirilmişdi. Həmçinin Şamaxıda, Qubada, Lənkəranda və ölkənin digər bölgələrində də əliyalın, silahsız insanlara qarşı soyqırımı törədilmişdi.



## Müvəqqəti paytaxt

1918-ci il aprelin əvvəllərində olduqca çətin və mürəkkəb zamanda Osmanlı dövlətindən kömək istəmək üçün azərbaycanlılardan ibarət heyət yarandı. Məhəmməd Əmin Rəsulzadənin başçılıq etdiyi qrup İstanbulda hərbiyyə naziri Ənvər Paşa və Sultan Məhəmməd Rəşadla görüşdü. Osmanlının Qafqaza ordu göndərməsi, sadəcə, ruslara deyil, ingilislərə və ermənilərə qarşı da döyüşməyi vacib edirdi. Birinci Dünya müharibəsində Osmanlının müttəfiqi olan Almaniya isə türklərin Qafqazda güclənməsini istəmirdi. Yəni bu mürəkkəb situasiya onu göstərirdi ki, Osmanlının Azərbaycana kömək etməsi üçün bir çox siyasi güclərlə mübarizə aparması lazım gələcək.

Ardı 11-ci səh.

# Azərbaycan Latviyanın regionda strateji tərəfdaşıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Daynis Qarançsın etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Daynis Qarançs fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Daynis Qarançs etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu ifadə edərək özünün Latviyaya və Latviya prezidentlərinin ölkəmizə səfərlərinin ikitərəfli münasibətlərimizin genişlənməsində rolunu qeyd etdi. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığa toxunaraq ticarət dövriyyəsinin artırılması, investisiya, turizm və digər sahələrdə əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu dedi. Dövlət başçısı Daynis Qarançsın səfir kimi fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin daha da inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Ardı 2-ci səh.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarına səfəri

# Şamaxı və İsmayıllı rayonları sürətli inkişaf yolundadır

## Heydər Əliyev Fondunun Məlikçobanlı kəndinin sakinlərinə hədiyyəsi



Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şamaxı və İsmayıllı rayonlarında səfərdə olub.

Ölkənin bütün regionları kimi, Şamaxı rayonunda da abadlıq, quruculuq və yenidənqurma işləri uğurla davam edir. Rayonda bir-birinin ardınca mühüm əhəmiyyətli iqtisadi və sosial obyektlər istifadəyə verilir. Onlardan biri də Şamaxının Məlikçobanlı kəndində yeni tikilmiş Gülağa Ağayev adına tam orta məktəbin binasıdır.

Ardı 3-cü səh.

# Sabah məktəblərdə ilk zəng çalınacaq

## Yeni tədris ilində respublikanın ümumtəhsil müəssisələrində 1525016 şagird təhsil alacaq

Sabah Azərbaycanda yeni dərs ili başlayır. 2019-2020-ci tədris ilində respublikanın ümumtəhsil müəssisələrində ümumilikdə 1 525 016 şagird təhsil alacaq. Şagirdlərdən 714 259-u qız, 810 757-si isə oğlandır. Ümumtəhsil məktəblərinin birinci sinfində 164 234, IX sinfində 122 043, XI sinfində isə 82 782 şagird oxuyacaq.



Bilikli, savadlı, təhsilli cəmiyyətə malik dövlət də qüdrətli olur. Elə buna görədir ki, ölkəmizdə də təhsil sahəsində ardıcıl uğurlu islahatlar, dövlət proqramları həyata keçirilir.

Ardı 9-cu səh.

# Azərbaycan Latviyanın regionda strateji tərəfdaşıdır

*Əvvəli 1-ci səh.*



Səfir Daynis Qarançs Azərbaycanın Latviyanın regionda strateji tərəfdaşı olduğunu dedi. O, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək inkişafını qeyd edərək müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini bildirdi. Daynis Qarançs iqtisadi əməkdaşlığın genişlənməsi və ticarət dövriyyəsinin artırılması üçün hökumətlərarası komissiyanın mühüm rol oynadığını söylədi. Ölkələrimiz arasında əməkdaşlığın inkişafında regionlararası əlaqələrin vacibliyini qeyd edən səfir Azərbaycanın və Latviyanın 14 şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulduğunu dedi. O, mədəniyyət, elm, təhsil kimi sahələrdə də Azərbaycanla Latviya arasında səmərəli əməkdaşlığın olduğunu bildirdi.

Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə toxunuldu, Aİ üzv ölkəsi kimi Latviyanın ölkəmizin bu təşkilatla əməkdaşlığının inkişafına verdiyi dəstək qeyd olundu.



# Ceyms Layl ŞARP: "Əsrin müqaviləsi" çərçivəsində əlaqələr ölkələrimiz arasında geniş enerji əməkdaşlığının uğurlu nümunəsidir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Layl Şarpın etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir Ceyms Layl Şarp fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Ceyms Layl Şarp etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan-Böyük Britaniya tərəfdaşlıq əlaqələrinin zəngin tarixə malik olduğunu və uzun illər uğurla inkişaf etdiyini dedi, keçən ilin aprelində Böyük Britaniyaya səfərini və səfər zamanı aparılan səmərəli müzakirələrin əməkdaşlığımızın inkişafında rolunu qeyd etdi. İki ölkə arasında əlaqələrin müxtəlif sahələri əhatə etdiyini vurğulayan Prezident İlham Əliyev enerji sahəsində 25 illik dövr ərzində BP şirkəti ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi və bu əməkdaşlığın uzunmüddətli perspektivdə inkişaf etməkdə davam edəcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev səfir Ceyms Layl Şarpa diplomatik fəaliyyətində uğurlar arzuladı.

Səfir Ceyms Layl Şarp yaxın günlərdə 25 illiyi qeyd olunacaq "Əsrin müqaviləsi" çərçivəsində əlaqələrin ölkələrimiz arasında geniş enerji əməkdaşlığının uğurlu nümunəsi olduğunu bildirdi. Səfir ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsinin və qeyri-neft sektoru, o cümlədən bərpa olunan enerji, kənd təsərrüfatı, səhiyyə, elm-təhsil və digər sahələrdə inkişafı üçün əlverişli imkanların olduğunu nəzərə çatdırdı. Ceyms Layl Şarp səfir kimi fəaliyyəti dövründə ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev, eyni zamanda, qeyri-neft sektorunda əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirərək Böyük Britaniyanın kiçik və orta biznes dairələrinin də Azərbaycanda fəaliyyəti üçün geniş imkanların olduğunu vurğuladı.

Görüşdə regional gündəlikdə duran və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

# Meksika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Andres Manuel Lopes Obradora

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Meksika arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Meksika xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 sentyabr 2019-cu il*

# Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Su Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 135; 1999, № 8, maddə 476; 2002, № 5, maddə 237; 2003, № 1, maddə 10; 2004, № 2, maddə 57; 2006, № 11, maddə 923; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2015, № 2, maddə 72, № 4, maddə 357; 2017, № 9, maddə 1631; 2019, № 1, maddə 20) aşağıdakı dəyişikliklər edilsin:

1. 18-ci maddə üzrə:

1.1. birinci hissənin onuncu abzasına "qaydalarını" sözündən sonra ", sudan istifadəyə görə güzəşt və azadolmaları" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Sudan istifadəyə görə güzəşt və azadolmalar yalnız təbii su mənbələrindən aşağıdakı məqsədlərlə götürülən suya görə tətbiq edilir:

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) emal edilməmiş su ilə təmin edilməsi;

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən içməli su təchizatı;

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektrik enerjisinin istehsalı üçün sudan istifadə edilməsi.".

2. 44-cü maddənin birinci hissəsinin yeddinci abzasından "sudan istifadəyə və" sözləri çıxarılsın və həmin hissəyə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"bu Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla, sudan istifadəyə görə haqq ödənilmədikdə;".

3. 45-ci maddənin birinci hissəsinin doqquzuncu abzasına "sudan istifadə haqqını" sözlərindən əvvəl "bu Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

4. 80-ci maddə üzrə:

4.1. birinci hissəyə "su obyektlərindən" sözlərindən sonra "tələb olunan həcmdə və ödənişsiz" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Yanğından mühafizə ehtiyacları üçün götürülmüş sudan və bu suyun saxlanıldığı obyektlərdən təyinatdankənar istifadə edilməsi qadağandır.".

5. 96-cı maddənin birinci hissəsinin ikinci abzasına "sudan" sözündən, üçüncü abzasına "su obyektlərindən" sözlərindən əvvəl "bu Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

6. 97-ci maddənin birinci hissəsində "Məcəllə ilə nəzərdə tutulmuş hallar istisna olmaqla" sözləri "Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin tələbləri nəzərə alınmaqla," sözləri ilə əvəz edilsin.

7. 98-ci maddənin üçüncü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1652-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1652-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 169; 2003, № 10, maddə 546; 2007, № 2, maddə 87; 2008, № 8, maddə 719; 2012, № 10, maddə 952; 2013, № 11, maddə 1333; 2014, № 10, maddə 1214, № 12, maddə 1550; 2017, № 9, maddə 1634; 2018, № 5, maddə 968) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "Məcəlləsinin" sözündən sonra "18-ci maddəsinin ikinci hissəsinin ikinci, üçüncü və dördüncü abzaslarında," sözləri əlavə edilsin;

3.2. 2.24-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.25-2.27-ci bəndlər əlavə edilsin:

"2.25. həmin Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin ikinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;

2.26. həmin Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin üçüncü abzasında "orqan (qurum)" dedikdə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;

2.27. həmin Məcəllənin 18-ci maddəsinin ikinci hissəsinin dördüncü abzasında "orqan (qurum)" dedikdə "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 sentyabr 2019-cu il*

# Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Şərur Sənaye Məhəlləsi yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədi ilə Şərur Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır;

2.2. Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkili, tənzimlənməsi, idarə olunması və inkişafı ilə bağlı tədbirləri Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi idarəedici təşkilat həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Şərur Sənaye Məhəlləsinin fəaliyyəti ilə bağlı müvafiq torpaq sahəsinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulması, eləcə də iştirakçıların fəaliyyətinin dəstəklənməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədi ilə zəruri tədbirlər görsün;

4.2. Şərur Sənaye Məhəlləsində istehsal olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etsin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini, həmin ərazinin istifadəyə yararlı vəziyyətə gətirilməsini, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) qurulmasını təmin etmək məqsədi ilə ilkin olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.2-ci yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 5-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

7. "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1173) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.3-cü bəndə "İqtisadiyyat Nazirliyi" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla)" sözləri əlavə edilsin;

7.2. 1.4-cü bəndə "Açıq Səhmdar Cəmiyyətinə" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla)" sözləri əlavə edilsin;

7.3. 3-cü hissəyə "İqtisadiyyat Nazirliyi" sözlərindən sonra "(Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələrinə münasibətdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti)" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 sentyabr 2019-cu il*

# Şamaxı və İsmayıllı rayonları sürətli inkişaf yolundadır

## Heydər Əliyev Fondunun Məlikçobanlı kəndinin sakinlərinə hədiyyəsi

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva məktəbin açılışında iştirak ediblər.

Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə yaradılan şəraitlə tanış oldu.

**Mehriban Əliyeva:** Məlikçobanlı kəndində bir məktəb var?

**Direktor Səftər Heydərov:** Bəli, bir məktəb var.

**Mehriban Əliyeva:** Neçə şagird yerlik?

**Səftər Heydərov:** 360 şagird yerlik. 1976-cı ildə tikilmiş məktəb idi. İstismara tam yararsız idi.

**Mehriban Əliyeva:** Zəlzələ nəticəsində bir az da yararsız vəziyyətə düşdü.

**Səftər Heydərov:** Bəli.

**Mehriban Əliyeva:** Sakinlər tərəfindən müraciət olundu.

**Səftər Heydərov:** Çox sağ olun, Sizə müraciət etdik. Sizin tapşırığınız əsasında 3 mərtəbədən ibarət 460 şagird yerlik bina tikilib, bütün inventar və avadanlıqlarla təchiz edilib. Ərazi yaşıllaşdırılıb.

**Mehriban Əliyeva:** Yəqin şagirdlərin sayı da artıb.

**Səftər Heydərov:** Bəli. Başqa məktəbdə oxuyan şagirdlərimiz var idi. Yeni vəziyyəti görüb çoxu qayıdıb gəlib.

**Mehriban Əliyeva:** Yeni tədris ilinin başlanması və əlbəttə, yeni gözəl məktəbin açılması münasibətilə valideynləri və şagirdləri mənim adımdan təbrik edin. Mənim böyük hörmətimi və salamlarımı onlara çatdırın.

**Səftər Heydərov:** Çox sağ olun.









Qeyd edək ki, Heydər Əliyev Fondu təhsil sahəsində "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələrini həyata keçirir. Bu layihələrin məqsədi ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, dövlətin təhsil siyasətinin həyata keçirilməsinə dəstək göstərməkdir. Hazırda respublikada 4447 məktəb fəaliyyət göstərir. Bu il ümumilikdə ölkə üzrə 25 yeni məktəb binasının tikintisi, 9 məktəbin əsaslı, 253 məktəbin cari təmiri, 24 rayonda isə 3520 şagird yerlik 50 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulur.

Bu müasir təhsil müəssisəsinin istifadəyə verilməsi yeni dərs ili ərəfəsində Məlikçobanlı kəndinin sakinlərinə ən gözəl hədiyyədir.

## Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir edilib













Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 14-də Şamaxı Cümə məscidini ziyarət ediblər. Məscidin imamı Mərhəmət Mustafayev ziyarətə gələnlərin bu müqəddəs ocağın yenidən bərpa olunmasını minnətdarlıqla xatırladıqlarını bildirdi.

**Mehriban Əliyeva:** Buraya xaricdən turistlər çox gəlir?

**Mərhəmət Mustafayev:** Çox gəlirlər, gündə təxminən 500 nəfər.

**Mehriban Əliyeva:** Hansı ölkələrdən?

**Mərhəmət Mustafayev:** Bütün Avropadan, Səudiyyə Ərəbistanından, Amerikadan gələnlər var. Allah cənab Prezidentdən razı olsun.

Tarixin müxtəlif dövrlərində təbii fəlakətlərə, repressiyalara və dağıntılara məruz qalmış Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir edilib. Prezident İlham Əliyev fondun bu təşəbbüsünə dəstək olub, Azərbaycan - Şərq memarlığının incisi olan bu abidəyə ikinci həyat bəxş edib, xalqımızın əsrlərlə formalaşan zəngin irsinin və mədəniyyətinin qorunmasına, gələcək nəsillərə ötürülməsinə töhfə verib. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Prezident İlham Əliyev məscidin açılışında iştirak edib. Beləliklə, bu məscid təkcə Şamaxı sakinlərinin deyil, ölkəmizə gələn qonaqların da ziyarət etdiyi müqəddəs məkanlardan biridir.

Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim hədiyyə edən məscidin imamı Mərhəmət Mustafayev dedi:

- Sizi Azərbaycanın, Şamaxının bu qədim məscidində salamlamaqdan çox böyük şərəf duyuram. Allah sizlərdən razı olsun. Burada sizlərin çox böyük zəhməti var. Allah cənab Prezidentdən razı olsun. Allahın kitabını, İnşallah, Sizə hədiyyə edirəm. Allah Sizi hifz eləsin.

**Mehriban Əliyeva:** Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

***AZƏRTAC***

# Şamaxı və İsmayıllı rayonları

## Rayonun inkişafı daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva sentyabrın 14-də Ulu Öndər Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.





AZƏRTAC xəbər verir ki, burada rayon sakinləri ilə görüşən Birinci vitse-prezident **Mehriban ƏLİYEVA** dedi:

- Salam, xoş gördük. Şamaxı rayonunda olmaqdan, sizi görməkdən çox şadam.

Birinci vitse-prezident Şamaxıya bu dəfə Prezident İlham Əliyevin tapşırığı ilə səfər etdiyini vurğulayaraq bildirdi:

- Bilirsiniz ki, cənab Prezident zəlzələdən dərhal sonra - fevralın 7-də Şamaxıya səfər etdi, vəziyyətlə tanış oldu, lazımi göstərişlər verdi və maliyyə vəsaiti ayrıldı. Mən indi görürəm ki, işlər yaxşı gedir. Üç rayon üzrə təxminən 547 fərdi ev tam yararsız vəziyyətdə idi. Onların yarısından çoxu artıq inşa olunub və insanların istifadəsinə verilib. Bərpa işləri gedir. Ümidvaram ki, dövlət bu təbii fəlakətin nəticələrini qısa zamanda tamamilə aradan qaldıracaq. Heydər Əliyev Fondu da bu işlərdə iştirak edir. Hər üç rayonda - Şamaxı, Ağsu və İsmayıllıda əhalinin xahişi nəzərə alınaraq yeni məktəblər tikilib, tibb məntəqələrində təmir işləri aparılıb. Mən sizinlə görüşməyə çox şadam.

**Sakinlər:** Çox gözəl. Biz də Sizin gəlişinizə çox şadıq.

**Mehriban Əliyeva:** Sizi salamlayıram və cənab Prezidentin də böyük salamlarını sizə çatdırıram.

**Sakinlər:** Çox sağ olsun. Bizim də salamlarımızı cənab Prezidentə çatdırın.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin təşəbbüsü ilə 2004-cü ildən bəri respublikamızın regionlarının inkişafı üçün kompleks tədbirlərin həyata keçirildiyini və Şamaxı rayonunda da bu istiqamətdə silsilə tədbirlərin uğurla reallaşdırıldığını vurğuladı. O, Azərbaycanda dövlət siyasətinin sosialyönümlü olduğunu və bu çərçivədə abadlıq işlərinin aparılmasının, təhsil müəssisələrinin, uşaq bağçalarının və səhiyyə obyektlərinin inşası və yenidən qurulmasının da başlıca hədəflərdən biri olduğunu bildirdi. Birinci vitse-prezident Mehriban Əliyeva Şamaxı rayonunun da inkişafının daim diqqət mərkəzində saxlanacağını dedi və rayon sakinlərinə uğurlar arzuladı.

Şamaxılılar ümumi amallar naminə bundan sonra da səylərini əsirgəməyəcəklərini vurğuladılar, Prezident İlham Əliyevə xüsusi salamlarının çatdırılmasını xahiş etdilər.

## Şamaxıda zəlzələdən qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən evdə yaradılan şəraitlə tanışlıq





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 14-də Şamaxıya səfəri çərçivəsində şəhərin Şirvanşah İbrahim küçəsi, 26 ünvanında yaşayan Hicran İsmayılovaya məxsus, bu il fevralın 5-də və 6-da baş verən zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində Heydər Əliyev Fondu tərəfindən inşa edilən evdə yaradılan şəraitlə tanış olub.

**Mehriban Əliyeva:** Sizi görməyə çox şadam.

**Hicran İsmayılova:** Çox sağ olun, Allah razı olsun.

**Mehriban Əliyeva:** Sağ olun, bir daha xoş gördük.

**Hicran İsmayılova:** Allah Sizdən razı olsun.

**Mehriban Əliyeva:** Bu ev Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub.

**Hicran İsmayılova:** Bəli. Siz bizi evlə təmin etmisiniz.

**Mehriban Əliyeva:** Qısa zamanda inşa edildi.

**Anar Ələkbərov:** Mehriban xanım, biz bu evi Sizin tapşırığınızla iki ay ərzində tikib təhvil vermişik.

**Hicran İsmayılova:** Çox sağ olun, Mehriban xanım.

Qeyd edək ki, həmin zəlzələ zamanı Şamaxı ilə yanaşı, İsmayıllı və Ağsu rayonlarında da fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Təbii fəlakətdən sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən zəlzələnin fəsadlarının dərhal aradan qaldırılmasına başlanıldı. Bu məqsədlə dövlət başçısının imzaladığı müvafiq sərəncamla Prezidentin Ehtiyat Fondundan vəsait ayrıldı. Prezident İlham Əliyevin sentyabrın 12-də və 13-də imzaladığı sərəncamlara əsasən isə Ağsu və Şamaxı rayonlarında yaşayış evlərinə dəyən ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə bu rayonların hər birinə 2 milyon manat vəsait ayrıldı.

Xatırladaq ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri də zəlzələdən dərhal sonra təbii fəlakətdən zərərçəkən ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alıblar.

***AZƏRTAC***

## Muğanlı kəndinin sakini dövlətə minnətdarlığını bildirdi

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şamaxı rayonunun Muğanlı kənd sakini Zamiq Səfərova məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa olunan evə baxıb.





**Mehriban Əliyeva:** Xoş gördük, sizi salamlamağa çox şadam. Bu balacalar sizin nəvələrinizdir? Nə gözəl qızlardır.

**Zamiq Səfərovun xanımı:** Xoş gəlmisiniz. Allah Sizə cansağlığı versin.

**Mehriban Əliyeva:** Fevralın 5-də zəlzələ oldu, 7-də Şamaxıya Prezident gəldi və vəziyyətlə tanış oldu. Dərhal göstərişlər verdi, maliyyə vəsaiti ayrıldı. Mən çox şadam ki, yararsız, yəni, qəzalı binaların, demək olar, yarısı artıq yenidən tikilərək istifadəyə verilib.

Səfərovlar ailəsi ən çətin anlarda onların yanında olmalarına və zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması üçün göstərdikləri köməyə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.





# sürətli inkişaf yolundadır

## Dövlətin öz vətəndaşına göstərdiyi qayğının daha bir təzahürü

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 14-də Şamaxı rayonuna səfərini başa çatdıraraq İsmayıllı rayonuna gəlib. Bu ilin fevralında baş verən zəlzələ İsmayıllı rayonuna da ziyan vurub. Dövlət başçısı bu rayonda da zəlzələnin ziyan vurduğu evlərin bərpası ilə bağlı tapşırıqlarını vermişdi.





AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonuna səfəri çərçivəsində Diyallı kənd sakini Sədiqə Orucovaya məxsus, zəlzələ nəticəsində qəzalı vəziyyətə düşmüş evin yerində inşa edilən yeni evə gəldi, burada yaradılan şəraitlə tanış oldu.

**Birinci vitse-prezident Mehriban Əliyeva:** Sizi yeni evinizdə xoş gördük.

**Sədiqə Orucova:** Xoş gəlmisiniz. Çox sağ olun.

**Mehriban Əliyeva:** Zəlzələ evinizi tam yararsız vəziyyətə salmışdı?

**Sədiqə Orucova:** Bəli. Çox sağ olun. Nə yaxşı ki, Siz gəldiniz. Minnətdarıq.

Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin salamlarını çatdıraraq gələcəkdə yeni evdə ancaq xoş hadisələrin qeyd olunmasını arzuladı.

**Mehriban Əliyeva** dedi:

- Mən cənab Prezidentin tapşırığı ilə Şamaxı və İsmayıllı rayonlarına gəlmişəm. Çox şadam ki, bizim vətəndaşlar belə qısa bir zamanda yeni, tam rahat, hər bir şəraitlə təmin olunmuş evdə yaşayırlar. Bir çox evlər, demək olar ki, yenidən tikilir, 2 minə yaxın evdə bərpa işləri aparılır. Mən çox şadam ki, işlərin, demək olar, yarısı tamamlanıb. Soydaşlarımız artıq yeni, daha rahat, daha geniş evlərdə yaşayırlar. Bu işlərdə Heydər Əliyev Fondu da çox fəaldır. Heydər Əliyev Fondunun dəstəyi ilə 3 rayonda 87 fərdi ev sakinlər üçün tikilir, hər bir rayonun kəndində yeni məktəb tikilib istifadəyə verilir, tibb məntəqələrində bərpa işləri aparılır, eyni zamanda, Şamaxıda çoxmərtəbəli 170 mənzillik 3 yeni bina inşa olunur. Yəni, bu, dövlətin öz vətəndaşına göstərdiyi qayğının təzahürüdür. Azərbaycan dövlətinin siyasəti hər zaman sosialyönümlü olub və bu addımlar davam edəcək. Həm cənab Prezident, həm də hökumət tərəfindən atılan addımların əsas məqsədi Azərbaycan xalqının, Azərbaycanda yaşayan hər bir vətəndaşın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, onları narahat edən problemlərin aradan qaldırılmasıdır. Uzun illərdir ki, bu istiqamətdə ardıcıl işlər aparılır.





Birinci vitse-prezident Mehriban Əliyeva ölkədə görülən işlərdən danışarkən, regionların sosial-iqtisadi inkişafı proqramının əhəmiyyətini vurğuladı, bu gün bütün rayonlarımızın abadlaşdığını, yeni infrastrukturla təmin edildiyini, yeni iş yerlərinin yaradıldığını qeyd etdi.

**Mehriban Əliyeva:** 2004-cü ildən regionların sosial-iqtisadi inkişafı proqramı həyata keçirilir. Biz keçmişə nəzər salsaq görərik ki, bütün ölkə üzrə, bütün rayonlarımız, regionlarımız, qəsəbələrimiz, kəndlərimiz nə qədər abadlaşıb. Yeni infrastruktur yaradılıb, yeni yollar salınıb, 640 yeni müasir xəstəxana tikilib, ölkədə mövcud olan 5 min məktəbdən 4 minə yaxını ya bərpa olunub, ya da yenidən inşa edilib. Yəni, bu, bütün istiqamətlərdə aparılan işlərdir. Regionlarda həm sənaye parkları, həm də aqroparklar salınır. Bu, öz növbəsində, yeni iş yerlərinin açılmasıdır, əhalinin məşğulluğudur. Ona görə hesab edirəm ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən atılan addımlar və proqramlar davam edəcək. Əlbəttə, bu işlər Azərbaycanın gələcək inkişafına, Azərbaycan xalqının yaşayış şəraitinin daha da yaxşılaşmasına xidmət edəcək.

Zəlzələdən əvvəl evin sahəsi 70 kvadratmetr idisə, yeni ev 100 kvadratmetrdir. 11 sot həyətyanı sahəsi olan evin otaqları tam təmir edilib.

## Uşaq bağçası müasir avadanlıqlarla təchiz edilib





Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva İsmayıllı şəhərinin Vahab Osmanov küçəsində inşa olunan yeni uşaq bağçasının açılışında iştirak ediblər.








AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva bağçada yaradılan şəraitlə tanış oldu.

İsmayıllı şəhərində məktəbəqədər yaşlı uşaqların sayı 2300 nəfərdir ki, onlardan 195 nəfəri məktəbəqədər təhsilə cəlb olunub. Məsələnin həlli məqsədilə Prezident İlham Əliyevin ötən ilin avqustunda imzaladığı sərəncamla İsmayıllı şəhəri ərazisində yeni 100 yerlik uşaq bağçası binasının tikintisinə Prezidentin Ehtiyat Fondundan İsmayıllı Rayon İcra Hakimiyyətinə 1,5 milyon manat vəsait ayrılmışdı. Üçmərtəbəli uşaq bağçasının binasında 5 qrupun fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb, bütün otaqlar müasir avadanlıqla təchiz edilib. Bağçanın həyətində yaşıllaşdırma işləri görülüb.

Sonda xatirə şəkli çəkdirildi.

# Şamaxı və İsmayıllı rayonları sürətli inkişaf yolundadır

## Rayonda infrastruktur yaradılır, yollar abadlaşdırılır

Sentyabrın 14-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva Ulu Öndər Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

AZƏRTAC xəbər verir ki, burada ictimaiyyətin nümayəndələri ilə görüşən Birinci vitse-prezident **Mehriban ƏLİYEVA** dedi:

- Salam, xoş gördük. Sizi görməyə çox şadam.

**Sakinlər:** Xoş gəlmisiniz.

**Mehriban ƏLİYEVA:** İsmayıllı rayonunda olmaqdan, sizi görməkdən çox şadam. İlk növbədə, cənab Prezidentin salamlarını sizə çatdırıram. Görürəm ki, rayonda tam inkişaf prosesləri gedir, infrastruktur yaradılır, yollar abadlaşdırılır. Yeni bağçanın açılışında olduq. Yeni məktəb, tibb məntəqəsi tikilib. Episentri İsmayıllı və Ağsu rayonlarının ərazisində olan 5-6 fevral zəlzələsindən sonra, ayın 7-də cənab Prezident Şamaxı rayonuna gəldi və ətraf rayonlarda bu təbii fəlakətin fəsadları ilə tanış oldu və dərhal bütün lazımi göstərişləri verdi. Bu istiqamətdə işlər aparılır, fərdi evlər, sosial və infrastruktur obyektləri bərpa olunur. 547 fərdi evdən yarısı artıq tikilib, insanların istifadəsinə verilib. İndi yeni tikilən həmin evlərin birində olduq, çay süfrəsi arxasında söhbət etdik.

Mən çox şadam ki, İsmayıllı rayonunda da Azərbaycanın bütün regionlarında gedən proseslər çox yaxşı, sürətlə gedir. Bütün bunlardan məqsəd Azərbaycan xalqının, Azərbaycanın hər bir vətəndaşının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, ölkəmizin gələcək inkişafı və daha da möhkəm, qüdrətli müstəqil Azərbaycanın olmasıdır.

* * *

Sonda xatirə şəkli çəkdirildi.







## *Mehriban ƏLİYEVA:* "Sizin İvanovka kəndində olmağıma çox şadam. Sizin yanınıza həmişə böyük məmnuniyyətlə gəlirəm"







Sentyabrın 14-də İsmayıllı rayonunun İvanovka kəndindəki Mədəniyyət Sarayının əsaslı təmirdən sonra açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva açılışda iştirak ediblər.

İvanovkalılar Mehriban Əliyevanı duz-çörəklə qarşıladılar.

**Mehriban Əliyeva:** Sizin İvanovka kəndində olmağıma çox şadam. Sizin yanınıza həmişə böyük məmnuniyyətlə gəlirəm.

**Nikitin adına kollektiv təsərrüfatın Müşahidə Şurasının sədri Olqa Jabina:** Salam. Xoş gəlmisiniz.

**Mehriban Əliyeva:** Sağ olun.

**Milli geyimli qızlar:** Bizim çörəyimizin dadına baxın.

**Mehriban Əliyeva:** Məmnuniyyətlə.

Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva çörəyin dadına baxdılar.





**Mehriban Əliyeva:** Sizin yeməkləriniz həmişə ləzizdir.

Birinci vitse-prezident Mədəniyyət Sarayında yaradılan şəraitlə tanış oldu. Mədəniyyət müəssisəsinin musiqi kollektivi ilə görüşən **Mehriban Əliyeva** dedi: Salam. Sizi Mədəniyyət Sarayının istifadəyə verilməsi münasibətilə təbrik edirəm. Sizin yanınıza qonaq gələndə həmişə xoşbəxt oluram. Sonra Birinci vitse-prezident Mehriban Əliyeva Mədəniyyət Sarayının musiqi kollektivinin ifalarını dinlədi.

İvanovka Mədəniyyət Sarayı 1985-ci ildə tikilib. Binada uzun müddət əsaslı təmir işləri aparılmadığından yararsız vəziyyətə düşmüşdü və mədəniyyət müəssisəsi fəaliyyətini dayandırmaq məcburiyyətində qalmışdı. Prezident İlham Əliyevin 2018-ci ilin sentyabrında imzaladığı sərəncama əsasən İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri, zəruri avadanlıq və inventarlarla təmin edilməsi üçün Prezidentin Ehtiyat Fondundan İsmayıllı Rayon İcra Hakimiyyətinə 2,5 milyon manat vəsait ayrıldı, binanın əvvəlki memarlıq üslubu saxlanmaqla əsaslı təmir edildi. Burada akt, banket zalları, musiqi məktəbinin fəaliyyət göstərdiyi otaqlar, rəqs salonu, kitabxana əvvəlki görkəmi saxlanılmaqla əsaslı təmir olundu.

**Olqa Jabina:** Bu, bizə gözəl hədiyyədir. İndi bizim nəinki çörəyimiz, bu mahnılarımız da var. Çox sağ olun.

**Mehriban Əliyeva:** Sizin konsertlərinizi dinləməyə gələcəyik.

**Olqa Jabina:** Həmişə şadıq.

**Mehriban Əliyeva:** Çox sağ olun. Sizə uğurlar arzulayırıq.

# "Multikulturalizmə giriş" dərsliyinin təqdimatı olub





Sentyabrın 14-də Azərbaycan Dillər Universitetində "Multikulturalizmə giriş" dərsliyinin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla ölkəmizdəki tolerant mühitdən, Azərbaycan multikulturalizmindən bəhs edib.

Bildirib ki, Azərbaycanda istər millətlərarası və dinlərarası münasibətlər, istərsə də multikultural dəyərlər sahəsində əsrlərboyu təşəkkül tapan ənənələr mövcuddur. Multikultural əhvali-ruhiyyə və multikultural dəyərlərə qayğıkeş münasibət əsrlərdən bəri Azərbaycan xalqına xas olan keyfiyyətdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizm siyasəti Prezident İlham Əliyev tərəfindən daha da möhkəmləndirildi və hazırda uğurla davam etdirilir. Dövlət başçısının müvafiq sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi isə ölkəmizdə bu məsələyə olan xüsusi diqqətin təzahürüdür.

Akademik Kamal Abdulla deyib: "Azərbaycana gələn xarici qonaqlar və turistlər ölkəmizdəki tolerant mühiti, dövlətimizin apardığı multikulturalizm siyasətini yüksək dəyərləndirirlər. Azərbaycan multikulturalizminin müasir dövrdə təntənəsini xarici vətəndaşlar heyranlıqla qarşılayırlar. Bu sahədə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Mərkəz yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı mühüm layihələr həyata keçirir. Mərkəzin önəmli layihələrindən biri də mütəmadi olaraq ildə iki dəfə təşkil edilən beynəlxalq multikulturalizm yay və qış məktəbləridir. Dəyərli ənənəyə çevrilmiş bu məktəblərin nəticəsi olaraq, xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması - "Azərbaycanın Gənc Dostları Klubu" formalaşıb. Bunun nəticəsidir ki, yay və qış məktəblərinin iştirakçıları arasında səmimi münasibətlər qurulur, onlar mütəmadi olaraq ölkəmizin multikulturalizm modeli haqqında məlumatlandırılır. BBMM-in "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Layihə çərçivəsində dünyanın 21 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni magistratura pilləsində tədris olunur".

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin tövsiyəsi və Təhsil nazirinin müvafiq əmri ilə 2019-2020-ci tədris ilindən etibarən ölkəmizin bütün ali təhsil məktəblərinin bakalavr səviyyələrində "Multikulturalizmə giriş" əsas fənn kimi tədris ediləcək. Bu məqsədlə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən fənni tədris edəcək müəllimlərin bilik səviyyələrini artırmaq üçün sentyabrın 2-dən 13-dək hazırlıq treninqi təşkil olunub. Treninqdə yüzdən çox müəllim iştirak edib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə layihəsi olan "Multikulturalizmə giriş" dərsliyi nəşr edilib. Kitabın elmi redaktoru və "Ön söz"ün müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir. Dörd bölmədən ibarət kitabın 1-ci bölməsində "Multikulturalizmə giriş" fənninin predmetindən və əhəmiyyətindən bəhs edilib. Digər bölmələrdə isə dini, etnik müxtəliflik və multikulturalizm mövzularına geniş yer verilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov deyib: "Ölkələrin elm, təhsil, mədəniyyət, iqtisadi, siyasi, səhiyyə və digər sahələrdəki nailiyyətləri müvafiq göstəricilər vasitəsilə müəyyən olunur. Bu göstəricilərlə ölkələrin müvafiq sahə üzrə yeri müəyyən olunur. Multikulturalizm sahəsində də müəyyən göstəricilər var. Multikulturalizm ölkənin inkişafının mühüm bir sahəsini əks etdirir ki, bu da ilk növbədə, etnik mədəni müxtəlifliklərin qorunmasıdır. Etnik mədəni müxtəlifliklərin qorunmasının əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk növbədə, cəmiyyətdə inteqrasiya proseslərinə səbəb olur və şərait yaradır. Multikulturalizm sahəsində ölkələrin inkişaf səviyyəsini müəyyən etmək digər sahələrlə müqayisədə bir qədər çətindir. Çünki bəzi istisnalar olmaqla buna dair əsaslı şəkildə göstəricilər tətbiq olunmayıb. 2015-ci ildən ölkəmizin ali təhsil müəssisələrində, BBMM tərəfindən isə xarici ölkələrin ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunması dövlətimiz tərəfindən bu siyasətin mühüm təzahürüdür. Fənnin tədrisi təkcə idraki xarakter daşımır, bunun çox böyük siyasi, praktik əhəmiyyəti var. Fənnin tədrisi tələbələri multikulturalizmlə bağlı məlumatlandırmaqla yanaşı, cəmiyyətdəki inteqrasiya proseslərinə də müsbət təsir göstərəcək. Bu sahədə "Multikulturalizmə giriş" dərsliyinin nəşr olunması böyük əhəmiyyət daşıyır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı multikultural, tolerant dəyərlərimizin öyrənilməsində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunmasının vacibliyini qeyd edib, bu sahədə "Multikulturalizmə giriş" dərsliyinin mükəmməl hazırlandığını diqqətə çatdırıb. Azərbaycanın dövlət-din modelinin bu gün bütün dünya ölkələri üçün örnək olduğunu vurğulayan dövlət komitəsinin sədri bildirib ki, hazırda müsəlman ölkələrində bu təcrübə geniş şəkildə öyrənilir.

Mübariz Qurbanlı deyib: "Müasir dövrdə multikulturalizmin təbliği, təşviqi çox vacibdir. Ölkəmizdəki tolerant mühit, Azərbaycanın multikulturalizm modeli dünya ölkələrində çox müsbət qarşılanır və tədqiq olunur. Biz beynəlxalq tədbirlərdə bunun şahidi oluruq".

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov, Azərbaycan Texnologiya Universitetinin müəllimi Əyyub Kərimov və treninq iştirakçısı, ADU-nun müəllimi Jalə Əsədova çıxış edərək Azərbaycan multikulturalizmi modelinin öyrənilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində "Multikulturalizmə giriş" dərsliyinin və "Azərbaycan multikulturalizmi" fənninin əhəmiyyətindən söz açıblar.

Tədbir çərçivəsində ölkənin müxtəlif universitetlərindən treninqdə iştirak etmiş 100-dən çox müəllimə sertifikat verilib.

# Azərbaycan ilə Özbəkistan arasında mədəni əlaqələrin inkişafı məsələləri müzakirə edilib

Sentyabrın 14-də Mədəniyyət naziri Əbülfəs Qarayev Özbəkistana səfəri çərçivəsində Daşkənd şəhərində yenicə fəaliyyətə başlamış Daşkənd Prezident Məktəbini ziyarət edib.



Məlumat verilib ki, məktəb Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyayevin təşəbbüsü ilə təsis olunub. Təhsil ocağı xüsusi metodlar və ən müasir innovasiyalarla təchiz olunub. Həmçinin, məktəbdə mədəniyyətin müxtəlif sahələrinə dair dərnəklər, kurslar fəaliyyət göstərir.

Məktəbin fəaliyyəti ilə tanış olan Əbülfəs Qarayevi Özbəkistan Respublikasının Xalq Təhsil naziri Şirzod Şermatov müşayiət edib.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı mədəniyyətin müxtəlif sahələrinə aid çoxsaylı Azərbaycan kitablarının, musiqi alətlərinin, eləcə də Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin nəşri ilə özbək dilində hazırlanmış kitabların Daşkənd Prezident Məktəbinə hədiyyə olunmasının vacibliyi vurğulanıb. İki ölkə arasında mədəni əlaqələrin inkişafı məsələləri müzakirə olunub.

Əbülfəs Qarayev səfər çərçivəsində Daşkənd şəhərində yenicə istifadəyə verilmiş "Minor" məscid kompleksini də ziyarət edib.

Əbülfəs Qarayevi Özbəkistan Respublikasının Xalq Təhsil naziri Şirzod Şermatov və məscidin imamı müşayiət edib. Məscidi ziyarət edən nazir Azərbaycanın təşəbbüsü ilə keçirilən Mədəniyyətlərarası Dialoq Forumundan və dövlətimizin həmin foruma verdiyi töhfələrdən danışıb. Ölkəmizdə müxtəlif mədəniyyətlər, dini icmalar üçün yaradılmış şərait haqqında məlumat verib.

Şirzod Şermatov da Özbəkistan təcrübəsindən məlumat verərək ölkədə çoxsaylı məscidlərin, dini mərkəzlərin inşa edildiyini, İslam Sivilizasiyalar Mərkəzi və İslam Akademiyasının yaradıldığını qeyd edib.

Ziyarət zamanı məscidin kitabxanası ilə tanış olan Əbülfəs Qarayev kompleksin yüksək arxitektura və islam ornamentlərindən istifadə olunmaqla inşa edildiyini xüsusi qeyd edərək bu tikilinin Daşkənddə insanların dini ibadətlərini yerinə yetirmələri üçün geniş şərait yaratdığını bildirib.

Qeyd edək ki, sözügedən səfər Əbülfəs Qarayevin Özbəkistanın Kokand şəhərində keçiriləcək Beynəlxalq Xalq Tətbiqi Sənəti Festivalında iştirakı məqsədilə həyata keçirilir. Tədbirdə Azərbaycandan da çoxsaylı sənətkarların iştirakı nəzərdə tutulub.

# Polis Akademiyasına qəbul edilmiş və ilkin hərbi hazırlığı başa vurmuş kursantların andiçmə mərasimi

Bu il Daxili İşlər Nazirliyinin (DİN) Polis Akademiyasına qəbul olunmuş və ilkin hərbi hazırlığı başa vurmuş kursantların sentyabrın 14-də andiçmə mərasimi keçirilib.





DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərasimdə əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev mərasimdə çıxış edərək Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun təbrikini və ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin qayğısı ilə inkişaf yoluna çıxan, ölkə və DİN rəhbərliyinin xüsusi diqqəti və tələbkarlığı ilə ən müasir ali təhsil müəssisələrindən birinə çevrilən Polis Akademiyası indi böyük tərəqqi və təkmilləşmə dövrünü yaşayır. Akademiya daxili işlər orqanları üçün yüksək səviyyəli ali hüquq təhsilli zabit kadrlar hazırlayır. Məhz yaradılan şəraitin nəticəsidir ki, akademiyanın təmsilçiləri respublika və beynəlxalq səviyyəli bilik və idman yarışlarında uğurlara imza atırlar.

N.Əliyev əminliyini bildirib ki, bu gün and içən hər bir gənc şəxsi nümunəsi ilə polisin cəmiyyətdəki nüfuzunun daha da artmasına çalışacaq, onun şanlı ənənələrinə layiq olacaq, etimadı və inamı doğruldacaq. Akademiyanın rəisi kursantlara dövlətə, dövlətçiliyə və xalqa hər zaman sədaqətli olmağı, yaxşı oxumağı, hüquqi bilikləri incəliklərinədək öyrənməyi tövsiyə edib.

Sonra Polis Akademiyasına qəbul olunmuş və ilkin hərbi hazırlığı başa vurmuş kursantlar polis andını içiblər. Kursantlar çıxış edərək bildiriblər ki, bu gün onların həyatında ən əlamətdar günlərdən biridir. Bu anlar çətin, məsuliyyətli, həm də çox şərəfli polis sıralarına ilk qədəmlərini qoymaq hüququ qazanan hər bir gənc üçün qürurvericidir.

Mərasim şəxsi heyətin "Polis Akademiyasının marşı"nın sədaları altında təntənəli keçidi ilə başa çatıb.

# Türkiyəli qazilərdən və ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyəti ilə görüş

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi, general-leytenant Arzu Rəhimov ölkəmizə səfərə gələn türkiyəli qazilərdən və ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyəti ilə görüşüb.



Xidmətdən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki qardaş ölkə arasında əlaqələrin mövcud vəziyyətindən və inkişaf perspektivlərindən söhbət açılıb. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri siyasət nəticəsində dövlətlərimiz arasında ikitərəfli, həmçinin çoxtərəfli müstəvidə əməkdaşlığın gündən-günə dərinləşdiyi xüsusi vurğulanıb.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə vətənpərvərlik tərbiyəsində veteran təşkilatlarının rolundan danışılıb, belə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, indiki dövrdə ölkələrimiz arasında tarixi ənənələrə söykənən sarsılmaz qardaşlıq əlaqələri bütün sahələrdə olduğu kimi, hərb quruculuğu sahəsinə, eləcə də ehtiyatda olan zabitlər və veteran təşkilatlarının əməkdaşlığına yeni töhfələr verir.

Bakının işğaldan azad olunmasının 101 illiyi münasibətilə keçiriləcək tədbirlərə qatılmaq üçün respublikamıza gələn qonaqlar Azərbaycan-Türkiyə münasibətlərini xalqlarımızın qardaşlığının təntənəsi kimi qiymətləndiriblər. Qeyd olunub ki, 101 il əvvəl iki qardaş xalqın əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ölkələrimizin hərb tarixinin ən şərəfli səhifələrindəndir.

Qonaqlar Azərbaycan Respublikasında səfərdə olmaqlarından məmnunluqlarını ifadə edib, səmimi görüşə və Azərbaycanın veteran təşkilatları ilə əlaqələrin inkişafı istiqamətində verilən dəstəyə görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinə təşəkkürlərini bildiriblər.

# Atəşkəs rejimi 20 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm, Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Azərbaycan Ordusunun hərbi qulluqçuları "Saber Junction - 19" təlimində iştirak edir

Azərbaycan Ordusunun hərbi qulluqçuları Almaniya Federativ Respublikasının "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction - 19" çoxmillətli briqada taktiki təlimində iştirak edirlər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi təlimdə fəaliyyətlərlə bağlı tapşırıqlar dəqiqləşdirilir və təlimin şəxsi heyətinin təlimatlandırılması icra olunur.

Təlimə Azərbaycan Ordusunun nümayəndələri ilə yanaşı, NATO-nun üzv və tərəfdaş ölkələrinin ordularından 2000-dək hərbi qulluqçu cəlb edilib.





# Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində andiçmə mərasimləri keçirilib

Tədris ilinin başlanması münasibətilə hərbi kadrların hazırlanmasını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisələrinə yeni qəbul olan kursantların andiçmə mərasimləri keçirilib.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsi və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətinin, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə Ulu Öndər Heydər Əliyevin və vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib. Sonra kursantlar sıra meydanında vətənə sədaqət andı içiblər.

Təntənəli mərasimlərdə çıxış edənlər gənc kursantlara vətənə, dövlətə və Ali Baş Komandana, hərbi anda sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, işğal altındakı torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalarını tövsiyə ediblər.

Mətbuata dövlət qayğısı

# 101 yaşlı "Azərbaycan"




*Əvvəli 1-ci səh.*

Zamanın yaratdığı ictimai-siyasi şərait nəticəsində, müəyyən çətinliklərə baxmayaraq, çar Rusiyasının müstəmləkə buxovundan ayrılaraq dünyanın bir çox dövləti tərəfindən müsəlman Şərqində ilk müstəqil dövlət kimi tanınan Azərbaycan Xalq Cümhuriyyəti, təəssüf ki, 1920-ci il aprelin 28-də sovet imperiyasının XI ordusu tərəfindən süquta uğradıldı. Bu zaman cəmiyyətin qvardiyasına çevrilən "Azərbaycan" qəzeti də işğala məruz qaldı, adının çəkilməsi belə qadağan edildi.

İşğaldan sonra qəzetdə çalışanların bəziləri həbs edildi, sürgünə göndərildi, bir qismi də qonşu İran, Türkiyə və Avropa dövlətlərinə mühacirət etdi. Mühacir istiqlalçılar yarımçıq qalmış arzularını və mübarizə yolunu davam etdirmək üçün Türkiyədə, Almaniyada qəzet və məcmuələr nəşr etdirdilər. Bu ənənə SSRİ adlı sovet imperiyası 1991-ci ildə süquta uğrayandan sonra respublikamızda da baş qaldırdı.

1991-ci ildə Azərbaycan tarixi müstəqilliyinə qovuşanda, 1918-ci il sentyabrın 15-də işıq üzü görən "Azərbaycan" qəzeti 70 illik məhbusluq həyatından sonra azadlığa çıxdı. Elə həmin ili hökumət qəzeti statusu "Həyat" qəzetinin timsalında bərpa olundu. 1992-ci il sentyabrın 22-dən sonra isə ictimaiyyətin ürəyincə olan "Azərbaycan" adı özünə qaytarıldı. Varislik ənənələrini özündə ehtiva edən bu qəzet müasir formada mübarizə meydanına atıldı. Ulu Öndər Heydər Əliyevin 6 dekabr 1994-cü ildə "Azərbaycan" qəzetinin 1000-ci nömrəsinin çapdan çıxması münasibətilə redaksiya kollektivinə ünvanladığı təbrik məktubunda deyildiyi kimi: "Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutdu".

Ölkəmizin adını daşıyan və milli dövlətçiliyimizin yaşıdı olan "Azərbaycan" qəzeti fəaliyyətinin ikinci dövrünün ilk günlərindən müstəqilliyimizə düşmən kəsilmiş daxili və xarici qüvvələrə qarşı milli-azadlıq mübarizəsinin ön sıralarında oldu, xalqımızın çoxillik arzu və istəklərinin daşıyıcısına çevrildi, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfələr verdi. Dövrün gərginlikləri çərçivəsində beynəlxalq birliyin qanunları əsasında dövlət müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına, Ermənistan silahlı birləşmələrinin işğalçılıq hərəkətlərinin ifşasına, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinə, terrora, haqsızlığa, ədalətsizliyə və ikili standartlara son qoyulmasına, habelə gənc və müstəqil Azərbaycanın hərtərəfli inkişafına çalışdı.

Müstəqil Azərbaycan dövlətinin respublika mətbuatına olan diqqət və qayğısı nəticəsində "Azərbaycan"ın fəaliyyəti müasirləşdirildi, qəzet yeni və rəngli çap üsuluna keçdi, tirajı və dövriliyi artırıldı, redaksiya yeni avadanlıqlarla təchiz edildi. Qəzetin həm cümhuriyyət, həm də müasir dövrdəki fəaliyyətini yüksək dəyərləndirən Heydər Əliyevin 1998-ci il sentyabrın 15-də "Azərbaycan" qəzetinin 80 illiyi münasibətilə redaksiya kollektivinə ünvanladığı təbrik məktubunda deyilir: "Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır".

Obyektivliyi, prinsipial dövlətçilik mövqeyi, ölkənin inkişaf və yeniləşmə islahatlarına töhfələri ilə diqqət çəkən "Azərbaycan" qəzeti Ulu Öndər Heydər Əliyev ideyalarının və siyasi kursunun vətənə, millətə və dövlətə xidmət etməyin əsasları kimi dünya azərbaycanlılarına çatdırılması istiqamətində var qüvvə ilə çalışmışdır. Prezident İlham Əliyevin sərəncamı ilə ötən il nəinki respublikamızda, bir sıra xarici ölkələrdə belə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin təntənə ilə keçirildiyi günlərdə "Azərbaycan" qəzetinin də 100 illik yubileyi rəğbətlə qeyd edildi. Bayramın bayrama qarışdığı o ərəfədə ölkə rəhbəri İlham Əliyevin "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə qəzetin kollektivinə ünvanladığı təbrik məktubunda bildirilir: "Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir".

İstər Ulu Öndər Heydər Əliyev, istərsə də Prezident İlham Əliyev tərəfindən "Azərbaycan"ın ünvanına deyilmiş dəyərli fikirlər həmişə hər birimizdə xoş ovqat yaratmış, jurnalist olaraq işə, yaradıcılığa, yazıb-yaratmağa həvəsimizi, məsuliyyətimizi daha da artırmışdır. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini davam etdirən "Azərbaycan" qəzetinin əməkdaşları hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulmasında, iqtisadi islahatların layiqincə həyata keçirilməsində, vətəndaş həmrəyliyi və milli birliyin yaradılmasında, habelə ölkə iqtisadiyyatının inkişafında maraqlı yazılarına görə müxtəlif illərdə Prezident İlham Əliyevin sərəncamlarına əsasən orden və medallara, fəxri adlara layiq görülüblər, mənzillə mükafatlandırılıblar. Qürur hissi ilə qeyd edək ki, keçən il Azərbaycan Prezidentinin sərəncamı ilə milli mətbuatın inkişafında xidmətlərinə görə 1 nəfər "Şöhrət" ordeninə, 4 nəfər "Əməkdar jurnalist" fəxri adına, 4 nəfər isə "Tərəqqi" medalına layiq görülmüşdür. Qəzet kollektiv əməyin, kollektiv zəhmətin bəhrəsi olduğundan redaksiyada yaranan ənənəyə əsasən hər hansı mükafatdan, fəxri addan "Azərbaycan"çıların hər birinə sevinc payı düşür.

101 yaşlı "Azərbaycan" mətbuata dövlət qayğısı sayəsində informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərindən istifadə edərək bu gün nəinki respublikamızda, bir çox xarici ölkələrdə yayımlanır. Bir neçə ildir ki, dünya ictimaiyyəti ölkəmizdə baş verən ictimai-siyasi proseslərlə bağlı həqiqətləri, yenilikləri qəzetimizin saytından oxuya bilir. Xatırladaq ki, qəzetin internet versiyası il ərzində 2 milyon dəfədən çox izlənilir. Bunun da 10 faizi 100-dən artıq xarici ölkənin payına düşür. Əsasən Fransa, ABŞ, Rusiya, Türkiyə, Almaniya, Böyük Britaniya, Gürcüstan, Norveç kimi ölkələrdən daha çox baxış qeydə alınır. Maraqlıdır ki, Cənubi Amerikada yerləşən Peru dövləti də baxış sayına görə ilk onluqda yer alır. Sirr deyil ki, Azərbaycanla bağlı daha dəqiq məlumat almaq istəyən insanlar məhz "Azərbaycan"ın saytına müraciət edirlər.

Ötən il "Azərbaycan"ın 100 illiyi ərəfəsində qəzetin internet səhifəsinin yeni versiyası istifadəyə verilib. Səhifənin tam olaraq yeniləndiyini ana səhifədən görmək mümkündür. Yeni versiyada oxuculara qəzetin çap versiyasını PDF formatında izləmək imkanı yaradılıb. "Azərbaycan"ın səhifələrində respublikada cərəyan edən siyasi, iqtisadi, sosial, mədəni və humanitar proseslərin operativ, dürüst şəkildə milli mənafe prizmasından işıqlandırılması bu gün onun ümumxalq qəzetinə çevrilməsini təmin edib, oxucuların böyük etimadını və inamını qazanmasına səbəb olub.

Aldığımız müraciətlərdən, telefon və internet bağlantılarından informasiya mübadiləsini özündə cəmləşdirən yeni versiya xarici ölkələrdə yaşayan oxucuların da ürəyincədir.

Ömrünün 101-ci ilinə çatan "Azərbaycan" bundan sonra müstəqil dövlətimizin uğur və nailiyyətlərindən qürur və sevinclə yazacaqdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azadlıq savaşının «Azərbaycan»ı






*Əvvəli 1-ci səh.*

Bakı azad olunduqdan sonra 31 Mart soyqırımına görə nəşrini dayandırmış bir çox qəzetlər fəaliyyətlərini bərpa etdilər, Türkiyə və Gürcüstana media əlaqələri, xəbərləşmə imkanları bərpa olundu. Azərbaycan mətbuatı Türkiyəyə, Türkiyə mətbuatının da Azərbaycan mətbuatına istinadən xəbərlər çap olundu və analitik yazıların, reportajların dərcinə üstünlük verildi.

Anadoluda nəşr olunan "Yeni gün" qəzetinin ilk səhifəsində dərc etdiyi Bakının azad olunması xəbərini "Azərbaycan" qəzeti öz səhifələrində əks etdirərək yazırdı: "Bakıda artıq Azərbaycan bayrağı dalğalanır. Azərbaycan hərbi hissələri Bakını azad etmişlər. Eyni dinə və eyni qana sahib olduğumuz qardaşlarımızı təbrik edirik. Bəlli olduğuna görə, axır vaxtlar Azərbaycanın paytaxtı olan Bakı kiçik bolşevik dəstələrinin, erməni avantüristlərinin əlində idi ki, onu da azərbaycanlıların milli-hərbi qüvvələri sıxışdırıb çıxardı".

N.Y. imzası ilə Azərbaycan gənclərinə müraciət edən istiqlal savaşının əsas ideoloqlarından biri - "Tərcüman", "Açıq söz" qəzetlərində yazıları ilə çıxış edən Nəsib bəy Yusifbəyli bu tarixi günə geniş məqalə həsr edərək gəncləri hərbi səfərbərliyə çağırırdı: "Şimdi sizə, ey Azərbaycan dəliqanlıları, sizə müraciət ediyorum. Üzərinizdə nə qədər ağır vəzifə olduğunu biliyorsunuzmu? Artıq meydanda heç bir bəhanə qalmadı. Vətənimiz düşməndən xilas oldu və oluyor. Silah istəyirsiniz, qardaşlarınız sizin üçün tədarük ediyor... Haydı, silah başına. Üç aya qədər səndən 100 min əsgər istərəm və görəcəyəm". N.Yusifbəyli gərgin hərbi-siyasi dönəmdə müstəqil Azərbaycanın istiqlalının qorunmasında ordu quruculuğunu əsas götürür, gəncləri hərbə çağırır və hər bir vətəndaşı bu yolda səfərbərliyə səsləyirdi.

Güzdəkdə hadisələrin gedişini izləyən ordu heyəti 16 sentyabrda Bakıya daxil oldu. Türk dünyasının ikinci İstanbulu rolunu oynayan Bakı uğrunda türk və Azərbaycan əsgərlərinin, silahlı dəstələrin çiyin-çiyinə eyni səngərdə döyüşməsi ortaq türk tarixi üçün çox şərəfli bir səhifəyə çevrildi.

Sentyabrın 17-də Bakıya daxil olan Azərbaycan hökuməti yaranan qarşıdurmanın milli qırğın səviyyəsinə qalxmasına imkan vermədi.

Xalqımızın bu bayram əhvali-ruhiyyəsinə toxunan "Azərbaycan" qəzeti yazırdı: "Bizim də həyatda yaşamağa hüququmuz vardı. Heç bir zirehli maşın, hidroplan, aeroplan, məftilli çəpər, mina və sair texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında sükutu başqasının fəlakəti üzərində öz xoşbəxtliyini qurmaq istəyənlərə ibrət dərsi olmalıdır".

Paytaxtın geri alınmasından sonra mətbəəsi 1918-ci ilin 31 martında dağıdılan "Açıq söz", "Bəsirət", "Kaspi" və bir çox qəzetlər öz fəaliyyətini bərpa etdi.

Azərbaycan paytaxtının türk əsgərinin köməyi ilə azad edilməsi Azərbaycan xalqına sonsuz bir sevinc gətirdi. Ordu komandanlığı sentyabrın 16-da bu təntənəli tarixi qeyd etmək üçün əmr verdi, hərbi hissələrin paradını, rəsmi keçidini təşkil etdi.

Qəhrəman əsgərlərin əhatəsində rəsmi keçidin təşkil olunduğu yerə gələn Xəlil və Nuru paşalar, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Nazim bəy Ramazanov xalq tərəfindən böyük sevgi, sonsuz təşəkkür hissləri, həmrəylikdən doğan şüarlarla qarşılandı. Azərbaycan və Osmanlı əsgərləri qəhrəman qazilər sifətiylə qucaqlaşdılar. Azərbaycan türkləri Bakının qurtuluşunu müqəddəs Qurban bayramında qarşıladığından bu gün ikiqat bayrama çevrildi. "Azərbaycan" qəzetinin səhifələrindən görünür ki, sentyabrın 15-də Bakı tarixin ən həyəcanlı və xoşbəxt günlərini yaşayıb.

Sentyabrın 17-də şəhərə daxil olan Azərbaycan hökuməti Gəncədə başlayan dövlət quruculuğu proseslərini davam etdirir, vətəndaşların dinc şəraitdə yaşaması, fəaliyyət göstərmələri üçün ciddi addımlar atır, təhsil-səhiyyə sahəsində milliləşmə proqramları həyata keçirirdi. Hökumətin əsas məqsədi Azərbaycanla iqtisadi-siyasi və təhlükəsizlik müqavilələri imzalamaq idi. Gəncə ilə Bakı arasında fəaliyyəti bərpa olunan dəmir yolu ilə çox rahat şəkildə Bakıya ilk dəfə knyaz Maqalovun rəhbərliyi ilə nümayəndə heyəti gəldi və cümhuriyyət rəhbərləri ilə görüş keçirdi. "Azərbaycan" qəzeti bu səfər barədə müfəssəl məlumat verərək yazırdı: "Srağagün gürcü heyəti mürəxəssəsi knyaz Maqalov təxti-sədarətində Azərbaycan heyəti-vükəlasını ziyarət edib, onu öz paytaxtı olan Bakıya köçməsi münasibətilə təbrik etmişdi".

Azəbaycan milli hökumətinin paytaxtı Bakıya köçürməsindən sonra Rus Milli Şurası da öz soydaşlarının taleyi ilə maraqlanmağa başladı. Şamaxıdan Bakıya köç edən rusların geri dönməsi, təhlükəsizliyi barədə narahatlıqlarına hökumət səviyyəsində aydınlıq gətirildi. Azərbaycan milli hakimiyyətinin Azərbaycan Cümhuriyyətinin vətəndaşı olan hər kəsin mal və təhlükəsizliyinə tam təminat verildiyi onların diqqətinə çatdırıldı.

Almaniya dövlətinin Qafqaz siyasəti ilə məşğul olmağa məmur edilən nümayəndə heyətinin rəhbəri "Azərbaycan" qəzetinin müxbirinə qısa müsahibə verərək deyirdi: "Almaniya hökuməti Azərbaycan Cümhuriyyəti ilə dostanə bir münasibət üzərində olduğu üçün Bakıya heyət göndərmək lazım görüldü. Azərbaycan Cümhuriyyəti ilə sülh müqaviləsi üçün buraya gəldik".

F.X.Xoyskinin rəhbərlik etdiyi milli hökumət üzvləri ilə yanaşı, Qafqaz İslam Ordusunun komandanlığı əhali ilə ünsiyyəti artırır, onların problemləri ilə yaxından tanış olur, hətta Nuru Paşanın qəbul saatları ilə bağlı qəzetlərdə elanlar dərc edilirdi: "Bütün hamıya ərz edirəm ki, Azərbaycan ordusunun baş komandanı əlahəzrət cənabları ilə şəxsi görüşün, bütün vətəndaşlar ziyarətə bir gün qalmış baş komandanın baş adyutantına yaxınlaşaraq qəbula yazılsınlar. Ziyarətçilər gün ərzində saat 10:00-dan 12:00-a qədər qəbul oluna bilərlər".

Bütün bu tədbirlərlə yanaşı, ordu komandanlığı ətraf rayonlara səfər edir, xalqla birbaşa təmas qururdu. Nuru Paşanın növbəti səfərlərindən biri oktyabrın 5-də Qubaya oldu. Səfərlə bağlı reportaj dərc edən "Azərbaycan" qəzeti yazır ki, ruhanilər başda olmaqla bir neçə min əhali paşa cənablarını böyük sevgi və coşqu ilə qarşılayıb. Şəhər xalçalarla bəzənib, damlarda bayraqları küləklər oxşayır. Küçələrə xalçalar, gəbələr döşənib. Salavat səsləri və "min yaşa, paşam" alqışları eşidilir, ta uzaqlara gedir. Avtomobillər irəliləyirlər. İki tərəfdə adamlar dayanıb. Quba qaimməqamı Əmir Xan Xoyski paşaları qarşılayıb ruhanilərlə birlikdə salamlayır".

Azərbaycanın istiqlala qovuşması üçün böyük fədakarlıqlar göstərən, Bakı azad olduqdan sonra Baku ləqəbini götürmüş Mürsəl Paşa, qəzetlərin verdiyi məlumata görə, şəhər xəstəxanalarına gedib yaralı əsgərlərə baş çəkib, onlara tütün, təsbeh paylayıb, vəziyyəti ilə maraqlanıb. Bütün bu addımlar insanlarda orduya inam, sevgi yaradır, insanlar rahat dolanır, asudə fəaliyyət göstərirdilər.

Türk əsgəri ilə Azərbaycan oğullarının çiyin-çiyinə verib Azərbaycanın istiqlalını qorumağını, müstəqil milli ordumuzun formalaşmağını istəməyən qüvvələr isə şayiələr yayır, Türkiyə ordusunun tezliklə geri çəkiləcəyi barədə danışırdılar. Bu cür məlumatların yayılmasının qarşısını almaq üçün Nuru Paşa qəzetlərdə çıxış etməyə məcbur oldu: "Mənə çatan məlumatlara görə, bədniyyətli insanlar Azərbaycandakı Osmanlı hökumətinin qoşunlarının geriyə - Türkiyəyə qaytarılmasına dair şayiələr yayırlar. Osmanlı dövlətinin hazırda Azərbaycan ərazisində olan bir qrup əsgərə ehtiyacı yoxdur. Hərbi hissələrin yeniləri ilə əvəzlənməsi, xidmət yerlərinin dəyişdirilməsi heç də qoşunların geri çəkilməsi demək deyil. Tanrıya şükür ki, Azərbaycan hər cür düşmən niyyətlərinə duruş gətirmək üçün kifayət qədər güclüdür və gələcəkdə də bu cür olacaqdır".

Məqsədli şəkildə yayılan bu cür şayiələrə baxmayaraq, Bakı öz rahat həyatını yaşayır, şəhərdə milli ab-hava hökm sürürdü.

Gəncədə milli zabit məktəbinin açılışına xüsusi diqqət yönəldən "Azərbaycan" qəzeti milli hərbi kadrların hazırlanmasının əhəmiyyətini xüsusi vurğulayır, tədbirdən irihəcmli reportaj çap edərək bu buraxılış mərasiminin tariximiz və millətimiz üçün nə qədər böyük əhəmiyyət daşıdığını qeyd edərək yazırdı: "Üzünü gənc hərbçilərə tutan Nəsib bəy bütün zamanlar üçün səslənəcək fikirlər səsləndirərək deyirdi: "Turan balaları! Həyat üçün pul, bir dəxi pul lazımdır". Bu sözləri Napoleon demişdir. Mən isə deyirəm: "Həyati-milliyyə və namus üçün süngü və bir də süngü lazımdır. Allah ömür versin xəlifeyi-zəmanəmizə. Bizə nicat onların zabitləridir". Məktəbin ilk buraxılış mərasimində şəhər bələdiyyəsi adından Ələsgər bəy Xasməmmədov, sonra Şeyxülislam Molla Məhəmməd Pişnamazzadə danışıb, Qurandan ayələr oxuyub.



Azərbaycanın müstəqilliyinin təmini üçün ordu quruculuğuna önəm verən milli mətbuat orqanlarında əsgərliyin hər bir insan üçün xüsusi əhəmiyyət daşıdığı, islamın da vacib şərtlərindən olduğu qeyd olunur, bu yöndə təbliğata önəm verilirdi.

1918-ci il 31 mart - 2 aprel soyqırımı zamanı Bakını tərk edən əhali, onların sırasında olan ziyalılar da İrandan geri dönürdülər. Bu barədə "Azərbaycan" qəzeti 25 oktyabr 1918-ci il tarixli sayında yazırdı: "Üç gün əvvəl Ənzəlidən bir minik paraxodu varid oldu. Bunlar mart hadisələrində İrana qaçmış müsəlmanlar idi. Bunlar Bakının alınması xəbərini eşitdikdən sonra Bakıya gəlmək istəsələr də, ingilislər maneə törətmişlər".

İrandan Bakıya dönənlərdən biri də məşhur Azərbaycan aktyoru Mirzağa Əliyev idi ki, bu xəbəri "Azərbaycan" qəzeti elə həmin sayda öz səhifələrinə köçürüb: "Mart hadisələrində davada yaralanandan sonra Rəştə gedib Küçük xanla bərabər ingilislərlə dava edən məşhur artistimiz Mirzağa Əliyev 4 gündür ki, Təbriz təriqiylə Bakıya gəlmişdir".

Bolşevik-daşnak birləşmələrinin martın 31-dən aprelin 2-dək Bakıda törətdikləri soyqırımı zamanı yerli müsəlman əhalinin evləri də qarət olunmuşdu. Bakı işğaldan azad olunandan sonra Azərbaycan milli hökumətinin və Qafqaz İslam Ordusu komandanlığının səyi ilə qarət olunan əşyalar bir yerə toplanıldı və əhalinin özünə qaytarıldı: "Mart hadisatı zamanı əhalidən yağma edilmiş və əhalidən alınıb Birjovı və Krasnovodski caddələrinin küncündəki Bünyadovun evində saxlanılan malları təyin edən heyət mützədarlara elan edir ki, əşya sahibləri caharşənbə, cümə günləri saat 10-dan axşam 10-a kimi kəndi əşyalarını tanıyıb alsınlar".

Azərbaycanın öz paytaxtına qovuşması müstəqil dövlətçilik tarixinin bərpasının yeni bir mərhələsinin başlanğıcı oldu. İstiqlalın qorunması və ərazi bütövlüyünün təmini milli mətbuatın, xüsusən iki dildə nəşr olunan "Azərbaycan" qəzetinin əsas istiqaməti idi. "Azərbaycan" qəzeti ilə yanaşı, "Açıq söz", "Bəsirət", "Kaspi" qəzetləri, yenicə nəşrə başlayan "Şeypur" jurnalı müstəqilliyin əleyhinə təbliğat aparanlara sərt cavablar verir, dövlətçiliyin möhkəmlənməsinə öz töhfələrini bəxş edirdilər.

Birmənalı qeyd etmək olar ki, üç il ərzində 443 nömrəsi işıq üzü görən, cümhuriyyətin şərəfli tarixini özündə yaşadan "Azərbaycan"ın fəaliyyət istiqamətləri Qərb mətbuatının əsas prinsipləri üzərində qurulub. Müstəqil dövlətçiliyə ideoloji-siyasi dəstək, elm və təhsilin, sosial durumunun gerçək mənzərəsi, obyektiv xəbərçilik siyasəti bu qəzetin əsas yaradıcılıq prinsipləri olub. Dövrün dəyişən siyasi ab-havasında, dünyanın siyasi xəritəsinin yenidən cızıldığı bir dövrdə, təbii ki, Azərbaycanın müstəqilliyinin qorunması qəzetin əsas qayəsi idi və bu dəyişiklik bu mətbu orqanın səhifələrində də sezilir. Fikrimizcə, "Azərbaycan"ın üç illik fəaliyyətində yaradıcılıq yeniləşməsinin üç mərhələsi mövcuddur. İlk mərhələ 1918-ci il sentyabrın 15-dən noyabrın 17-dək olan dövrdür. Əsasən ordu quruculuğuna, hərbi xidmət və səfərbərliyə, milli ovqatın yüksəldilməsinə yönələn qəzetin bu dövrdəki fəaliyyətini, bir növ, romantik qəzetçilik dövrü adlandırmaq olar. İkinci dövr Qafqaz İslam Ordusunun geri çəkilməsi, qalib qismində müttəfiq ordular komandanı Tomsonun Bakıya daxil olması ilə başlayır və bundan sonra "Azərbaycan"ın əsas diqqəti parlament, hüquq, ədliyyə və təhsil sistemini Avropa standartlarına uyğunlaşdırmağa yönəlir. Ərazi bütövlüyünün təmini, bolşevizmə qarşı mübarizə və milli ordu quruculuğu da bu dövrdən başlayaraq 1920-ci ilin yanvarınadək qəzet səhifələrində davam etdirilib.

1920-ci il yanvarın 14-dən sonra Azərbaycan Cümhuriyyəti müstəqilliyinin Avropada təsdiqindən sonrakı dönəmlər "Azərbaycan" üçün yeni şanslar yaratdı. Amma təəssüf ki, bu dövr qısa oldu və 1920-ci il aprelin 28-i müstəqil Azərbaycan Sovet Rusiyası tərəfindən işğal altına alındı.

***Akif AŞIRLI***

Yeni dərs ili başlayır

# Sabah məktəblərdə ilk zəng çalınacaq

Əvvəli 1-ci səh.

Xüsusilə son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin xüsusi diqqəti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində həyata keçirilən proqramlar, layihələr təhsildə əldə edilən uğurların sayını artırır. Elə təkcə bu il Prezidentin iki böyük sosial paketi çərçivəsində təhsil işçilərinin əməkhaqlarının artırılması Azərbaycanda müəllimlərə hər zaman göstərilən yüksək qayğı və diqqətin bariz nümunələrindən biridir. 260 minə yaxın təhsil işçisini əhatə edəcək artımda ödəniş sistemi iki qrupa bölünür: diaqnostik qiymətləndirmədən keçənlər və vahid tarif cədvəli ilə əməkhaqqı alanlar. Pedaqoji işçilərin 150 min nəfərini diaqnostik qiymətləndirmədən keçənlər, 100 min nəfərini vahid tarif cədvəli ilə əməkhaqqı alanlar təşkil edir. Birinci qrup üzrə orta aylıq əməkhaqqı 20, ikinci qrup üzrə 40 faiz artırılıb. Əməkhaqqı artımları təhsil işçilərinin sosial müdafiəsini gücləndirməklə yanaşı, eyni zamanda, təhsilin keyfiyyətinə də müsbət təsir göstərəcək. Bu günlərdə isə 2019-2020-ci tədris ilində yüksək balla ali məktəblərə qəbul olunan tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Prezidentin sərəncamı təhsil ictimaiyyətinin daha bir sevincinə səbəb oldu və 102 gənc tələbə bu təqaüdə layiq görüldü.









## Heydər Əliyev Fondu bu il də birinciləri sevindirdi

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən imzalanmış müvafiq sərəncamlara əsasən, regionlarda modul tipli məktəblərin quraşdırılması məqsədilə 18 milyon manat, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə 40 milyon manat, respublika üzrə təhsil müəssisələrinin qazlaşdırılması məqsədilə 8.7 milyon manat vəsait ayrılıb. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan verəcək.

Heydər Əliyev Fondu “Yeniləşən Azərbaycana yeni məktəb”, “İnternat məktəblərinin inkişaf proqramı”, “Təhsilə dəstək” kimi layihələri də uğurla davam etdirir. Elə bu il də fondun təşəbbüsü ilə aztəminatlı ailələrin 2019-2020-ci tədris ilində birinci sinfə gedən övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr verilib. Hədiyyələr ünvanlı sosial yardım alan ailələrin birinci sinif şagirdləri üçün nəzərdə tutulub. Fondun sifarişi ilə 17 min aztəminatlı ailələrin övladlarına, uşaq evləri və internat məktəblərində məskunlaşan şagirdlərə çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə verilib. Qeyd edək ki, fond tərəfindən “Təhsilə dəstək” layihəsi çərçivəsində hər il aztəminatlı ailələrin birinci sinif şagirdlərinə çanta və müxtəlif məktəb ləvazimatları verilir.

## Hazırda respublikada ümumilikdə 4 447 məktəb fəaliyyət göstərir

Respublikada ümumilikdə 4 447 məktəb fəaliyyət göstərir. Onlardan 322-si ibtidai, 3 307-si tam orta, 795-i isə ümumi orta məktəbdir. 16 xüsusi tipli ümumi orta məktəb və 7 əyani-qiyabi (axşam) tam orta məktəb, o cümlədən 59 məktəb-lisey, 49 lisey, 15 gimnaziya və 14 inteqrasiya təlimli internat tipli gimnaziya var.

Yeni tədris ilinin əvvəlində Təhsil Nazirliyi tərəfindən təmir-tikinti işləri yekunlaşdırılaraq 43 məktəb binası şagirdlərin istifadəsinə verilib. Onlardan 20-si yeni tikilən, 8-i əsaslı təmir olunan, 15-i isə modul tipli məktəbdir. 2019-cu ildə ümumilikdə respublika üzrə 25 yeni məktəb binasının tikintisi, 9 məktəbin əsaslı, 253 məktəbin cari təmiri, 24 rayonda isə 3520 şagird yerlik 50 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulur. 2019-2020-ci tədris ilinə dövlət ümumtəhsil müəssisələrinin I-XI sinifləri üçün 322 adda 5668865 nüsxə dərslik və metodik vəsait çap edilib.

2019-2020-ci tədris ilində 108074 uşağın ümumtəhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında təhsil alacağı proqnozlaşdırılır. Dövlət ümumtəhsil müəssisələrinin məktəbəhazırlıq qrupları üçün 3 adda 168148 dərslik və metodik vəsait çap edilib.

## 5 yaşlıların 90 faizinin məktəbəhazırlıq qruplarına cəlb olunması üçün imkan yaradılıb

Yeni tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələrində ümumilikdə 414 844 şagird təhsil alacaq. Qurumun tabeliyində 279-u tam orta məktəb olmaqla, cəmi 318 məktəb fəaliyyət göstərir.

Bakıdakı 271 ümumtəhsil müəssisəsində 962 məktəbəhazırlıq qrupunun fəaliyyət göstərməsi nəzərdə tutulub. 2019-2020-ci tədris ilində bütün 5 yaşlıların 90 faizinin məktəbəhazırlıq qruplarına cəlb olunması üçün dövlət tərəfindən imkan yaradılıb.

Bakı şəhərində Təhsil Nazirliyi tərəfindən 58 məktəbdə cari təmir işləri davam etdirilir. Sabunçu rayonu ərazisində şagird sıxlığının aradan qaldırılması məqsədilə Heydər Əliyev Fondu tərəfindən Kürdəxanı qəsəbəsində 960 şagird yerlik yeni məktəb binasının tikintisi nəzərdə tutulur. 39, 113, 129 nömrəli tam orta məktəblərdə əsaslı təmir işləri aparılır, 97, 101, 155 və 300 nömrəli tam orta məktəblərin köhnə korpuslarının sökülərək yenidən tikintisi davam etdirilir. 154, 205 və 208 nömrəli tam orta məktəblərin isə bütövlükdə binalarının sökülərək yenidən tikintisi həyata keçirilir. Bundan əlavə, ehtiyac olan ərazidə daha bir yeni məktəb (161 nömrəli tam orta məktəb) binasının tikintisi başa çatdırılıb. Həmçinin 90 nömrəli tam orta məktəbin köhnə korpuslarının sökülərək yenidən tikintisi, yeni korpusun əsaslı təmiri, 251 nömrəli tam orta məktəb üçün isə əlavə korpusun tikintisi planlaşdırılır.

Ümumtəhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir və bu, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Yeni tədris ilində ibtidai siniflərdə ilk dərs məşğələsi “İdman və sağlamlıq”, V-IX siniflərdə “Mütaliə - mənəvi zənginliyə aparan yol”, X-XI siniflərdə isə “Azərbaycan inkişaf yollarında” mövzularına həsr olunacaq. Təhsil nazirinin müvafiq əmrinə əsasən, yerli təhsili idarəetmə orqanlarına və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələrinə həmin dərslərdə ictimaiyyət nümayəndələrinin, müharibə iştirakçılarının, əmək veteranları və sabiq məzunların iştirakının təmin edilməsi tapşırılıb.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Qax rayonunda gürcülərin yaşadığı kənddə yeni məktəb binası istifadəyə verilib

Qax rayonunun Əlibəyli kəndində gürcüdilli tam orta məktəbin şagirdləri yeni dərs ilini yeni binada qarşılayacaqlar.





AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin ötən il oktyabrın 29-da imzaladığı sərəncama əsasən Əlibəyli kəndində inşa edilən 216 şagird yerlik yeni məktəb binasının tikintisi başa çatıb və məktəb yeni dərs ili ərəfəsində şagirdlərin istifadəsinə verilib.

Bu münasibətlə keçirilən mərasimdə Təhsil nazirinin müavini İdris İsayev, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze, səfirliyin əməkdaşları, rayon rəhbərliyi və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edən səfir Zurab Pataradze yeni dərs ili ərəfəsində belə dəyərli hədiyyəyə görə Gürcüstan hökuməti adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Mərasimdə Təhsil nazirinin müavini İdris İsayev, rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev və kənd sakinləri çıxış edərək, yeni dərs ilində məktəbin kollektivinə uğurlar arzulayıblar.

Sonra yeni məktəb binasına baxış olub. Müasir standartlara uyğun inşa edilən yeni məktəb binasında sinif otaqları ilə yanaşı, 11 fənn kabineti, 2 laboratoriya, 2 texnologiya kabineti, kompüter və hərbi hazırlıq otaqları, həmçinin yeməkxana, akt və idman zalları, xidməti otaqlar fəaliyyət göstərir. Cari dərs ilində məktəbdə 161 şagird təhsil alacaq, onların təlim-tərbiyəsi ilə 33 müəllim məşğul olacaq. Ötən il məktəbi bitirən 16 məzundan 7-si Gürcüstanın ali məktəblərinə daxil olub.

# Bir sinfin qalibləri

## Kəlbəcər 28 nömrəli tam orta məktəbin 18 nəfərlik sinfinin builki məzunlarının hamısı yüksək balla tələbə adına layiq görülüb

Yeni dərs ili başlanır. İstər orta, istərsə də ali təhsil ocaqlarında “həyat qaynayır”. Ötən tədris ilinin yekunları və qarşıda duran vəzifələr müzakirə edilir. Son illər daha bir mühüm məsələ də diqqət mərkəzində saxlanılır: orta məktəb məzunlarının ali təhsil müəssisələrinə qəbul olunanlarla rayon icra hakimiyyəti, təhsil şöbələri və ictimai təşkilatlarla birlikdə görüşlər təşkil edilir.



Ötən illərdəki kimi, builki ali məktəblərə qəbulda da kəlbəcərli məzunlar yüksək göstəriciləri ilə fərqləniblər. Kəlbəcər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və “Aşıq Şəmşir Mədəniyyət Ocağı” İctimai Birliyinin dəstəyi ilə Gəncə şəhərində məcburi köçkünlər üçün salınmış beşmərtəbəli yaşayış binalarından ibarət yeni qəsəbədəki mədəniyyət sarayında ali məktəblərə yüksək balla qəbul olunan məzunların görüşü keçirilib.

Görüşə ali məktəbə qəbul olunmuş abituriyentlər və onların valideyinləri dəvət olunub. Tədbirdə 2018-2019-cu tədris ilində rayondan ən yüksək nəticə göstərmiş 14 nəfər (600-700 bal), o cümlədən ali hərbi məktəblərə qəbul olunmuş 12 məzun iştirak edib.

Tədbirdə qeyd edilib ki, Kəlbəcər rayon 28 nömrəli tam orta məktəbin XI sinfində təhsil alan 18 şagirdin hamısı builki qəbulda iştirak edərək tələbə adına layiq görülüb. 1 nəfər - Kəlbəcər rayon 56 nömrəli tam orta məktəbin məzunu Qorxmaz Səfərov isə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanında 674 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə işi (tədris ingilis dilində) ixtisasına qəbul olunub. Bu, Kəlbəcər rayonu üzrə ən yüksək nəticədir. Sevindirici haldır ki, Qorxmaz Səfərov “2019-2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 2019-cu il tarixli sərəncamına əsasən Prezident təqaüdünə layiq görülənlər sırasındadır. Qorxmaz Səfərov bu mükafatın onun ali məktəbdə də yüksək göstəricilərlə təhsil alması üçün üzərinə qoyulan ciddi məsuliyyət olduğunu deyib. Prezident təqaüdçüsü əmindir ki, dövlət başçısının göstərdiyi etimadı layiqincə doğruldacaq və aldığı təqaüd davamlı olacaq.





Xatırladaq ki, son illər rayonun ümumtəhsil müəssisələrində şagirdlərə hərbi-vətənpərvərlik hisslərinin aşılanması ilə bağlı keçirilən dərslər və hərbi hazırlıq təlim-məşqləri də öz nəticəsini göstərməkdədir. Hərbi lisey və akademiyalara qəbul olunmaq üçün şagirdlər arasında maarifləndirmə işləri aparılmış, mövzu ilə bağlı rəsm, mahnı, şeir müsabiqələri təşkil edilmişdir. Məhz bunun nəticəsidir ki, builki qəbulda 12 kəlbəcərli məzun ali hərbi məktəblərin tələbəsi adını qazanıb.

Görüşdə ali məktəblərə yüksək nəticələrlə daxil olan məzunlara fəxri fərman və bütün tələbələrə “Aşıq Şəmşir Mədəniyyət Ocağı” İctimai Birliyi tərəfindən maddi dəstək olaraq pul mükafatı təqdim edilib.

Yeri gəlmişkən onu da qeyd edək ki, 2017-2018-ci tədris ilində kəlbəcərli məzunlar arasında yüksək nəticə ilə ali məktəblərə qəbul olunmuş tələbələrə Prezident təqaüdü verilmişdir. Rayonun 28 nömrəli tam orta məktəbinin məzunu Salmanov Həbib Ellaz oğlu (690 bal) və 117 nömrəli tam orta məktəbin məzunu Həmidova Ülkər İlham qızı (687 bal) Prezident təqaüdinə layiq görülmüşdülər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Qayğıya layiqincə cavab verəcəyik

Yeni dərs ilinə biz müəllimlər böyük sevinclə, yüksək əhvali-ruhiyyə ilə gedirik. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə sentyabr ayının 1-dən əməkhaqqının 20 faiz artırılması sevincimizə sevinc qatır.

Dövlətimizin qayğısını hər birimiz üzərimizdə hiss edirik. Məktəbimiz əsaslı şəkildə təmir olunur. Təmirdən sonra məktəb yeni və yaraşıqlı görkəm alacaq, gözümüzü oxşayacaqdır. Cari ildə məktəbin məzunlarının ali təhsil ocaqlarına qəbul olunmasında da uğurlarımız böyükdür. Yaradılan şərait, dövlət səviyyəsində göstərilən davamlı qayğı və diqqət qazandığımız uğurların əsas şərtidir. Bu qayğının daha bir ifadəsidir ki, bu yaxınlarda cümhuriyyətimizin 100 illiyi ilə əlaqədar təsis olunmuş medalla təltif olunanlar sırasında mən də varam.

Dövlətimizin ölkədə təhsilin inkişafına, onun maddi-texniki bazasının möhkəmlənməsinə, müəllimlərin sosial rifahının yüksəldilməsinə yönələn siyasəti cəmiyyətimizdə birmənalı olaraq minnətdarlıqla qarşılanır. Prezident İlham Əliyevə göstərdiyi qayğı və diqqətə görə çoxsaylı təhsil işçiləri adından minnətdarlığımızı bildirir və əmin edirik ki, ölkəmizin işıqlı sabahları üçün vətənpərvər, yüksək intellektual səviyyəyə malik yeni nəsil yetişdirmək kimi şərəfli vəzifənin öhdəsindən bundan sonra da layiqincə gələcəyik.

***Ramiz KƏRİMOV,***
***Mingəçevir şəhər 16 saylı tam orta məktəbin müəllimi***




# Yardımlı məzunlarının 168 nəfəri bu il tələbə adını qazanıb

Respublikamızın ucqar dağ rayonlarından biri olan Yardımlıda da son illər ali məktəbə daxil olan tələbələrin sayı artmaqdadır. 1928-ci ildən fəaliyyətə başlamış Yardımlı Rayon Təhsil Şöbəsinin tarixində yaddaqalan hadisələr az olmayıb. Maarif şöbəsi kimi yaradılan hazırkı təhsil şöbəsi həmin il rayonun 8 kəndində məktəb açılmasına nail olub.



1932-ci ildən isə rayonun bütün kəndlərində məktəblər fəaliyyətə başlayıb. Açığı, burada qızların Sovetlər dövründə icbari təhsildən kənarda qalmaları uzun illər boyu davam etmişdi. Lakin dövlət müstəqilliyinin bərpasından, əsasən də Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra rayonda digər sahələrdə olduğu kimi, təhsildə də yeniliklər özünü göstərməyə başladı. Məhz yaradılmış şəraitin, dövlətin təhsil siyasətinin uğurlu nəticəsidir ki, hazırda Yardımlı rayonunda 46-sı tam, 18-i ümumi orta, 16-sı isə ibtidai olan 80 ümumtəhsil məktəbi fəaliyyət göstərir.

Bu il ölkəmizin ali təhsil müəssisələrinə yüksək balla qəbul olunanların arasında Yardımlı məktəbləri məzunlarının da sayı az deyil. Maraqlı və fərəhli haldır ki, tələbə adını qazanan 168 məzundan 36-sı qızdır. Onu da qeyd etmək yerinə düşərdi ki, Yardımlı məktəbləri məzunlarından qəbul imtahanlarında 1 nəfəri 600, 13-ü isə 500-dən artıq bal toplayıb.

Bu gün respublikamızda, o cümlədən Yardımlı rayonunda təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir ki, onlar da ali məktəblərə qəbul prosesində öz müsbət nəticəsini göstərməkdədir. Belə ki, məktəblərin maddi-texniki, eləcə də ixtisaslı kadr potensialı ilə təmin olunması, dövlət tərəfindən təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, rayonda universitetlərə daxil olan və 500-dən yuxarı bal toplayan gənclərin sayı ildən-ilə artır. Məktəblərdə tədrisin yüksək səviyyəyə çatdırılmasından ötrü rayon təhsil şöbəsinin rəhbərliyi və bütün əməkdaşları davamlı şəkildə monitorinqlər keçirir, pedaqoji kollektivlərlə müxtəlif xarakterli maarifləndirici layihələr reallaşdırırlar.



Onu da qeyd edək ki, 2018-2019-cu tədris ilində rayonun ümumtəhsil məktəblərində IX siniflər üzrə imtahanlara buraxılan 602, XI siniflər üzrə isə 572 şagirdin hamısı təhsil haqqında attestat alıb. Onlardan 284 nəfər ölkəmizin ali məktəblərinə qəbul olunmaq üçün Dövlət İmtahan Mərkəzinə sənəd verib. Ümumilikdə məzunlardan 168 nəfər ali, 100-ü isə orta-ixtisas məktəblərinə daxil olub. Ali məktəblərə qəbul olunanların 32 nəfəri ötən ilin məzunlarıdır.



Sevindirici haldır ki, bu il tələbə adını qazanmış məzunlardan 58 nəfəri müəllimlik peşəsinə üstünlük verib. Məzunlarımızdan Ali Hərbi Akademiya və C.Naxçıvanski adına hərbi liseyə daxil olanlar da var.

***Malik BALAŞOV,***
***Yardımlı rayon A.Fətullayev adına Anzov kənd tam orta məktəbin direktor müavini***

İŞİMİZ, GÜZƏRANIMIZ

# Dövlət proqramlarının icrası regionların sosial-iqtisadi simasını dəyişib

## Böyük nailiyyətlərdən biri də bölgələrdə istehsalatın artması, məhsul bolluğunun yaranmasıdır

2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ölkəmizin ümumi inkişafında önəmli rol oynayır. Bu proqramlar Azərbaycanın hərtərəfli tərəqqisinin təmin edilməsinə, paytaxtla regionlar arasında fərqin azalmasına səbəb olur.



Təsadüfi deyil ki, proqramların qəbulundan sonra regionlarda minlərlə kiçik, orta və böyük həcmli müəssisələr istifadəyə verilmiş, münbit infrastruktur yaradılmış, turizm inkişaf etmiş, aqrar sektorda məhsul istehsalı dəfələrlə artmışdır. Uğurla icra olunan dövlət proqramları həmçinin regionlardakı şəhər, qəsəbə və kəndlərin simasını dəyişmiş, sosial-iqtisadi inkişaf potensiallarının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə şərait yaratmışdır.

Prezident İlham Əliyevin bölgələrə mütəmadi səfərləri dövlət proqramlarının icrasını sürətləndirməklə regionların hərtərəfli inkişafının təmin edilməsi, yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Dövlət başçısı proqramların icra olunduğu dövr ərzində 1800-dən çox infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuş, sahibkarlarla görüşlər keçirmiş, qaldırılan məsələlərlə maraqlanmışdır. Prezident yerlərdə olunan müraciətləri və dövlət proqramlarının tələblərini nəzərə alaraq bölgələrdəki şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 650-dək sərəncam imzalamışdır. Həmin sənədlərin imzalanması regionlarda çoxlu istehsal, sənaye, emal və sosial təyinatlı obyektlərin tikintisinə imkan yaratmışdır.

Dövlət proqramları çərçivəsində görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişafa da müsbət təsir göstərmişdir. Bunun sayəsində 2004-2018-ci illərdə ümumi daxili məhsul real ifadədə 3,3, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 2,6, o cümlədən qeyri-neft sənayesi 2,4, kənd təsərrüfatı 1,7 dəfə çoxalmışdır. Dövlət proqramlarının icrası dövründə regionlarda çoxsaylı yeni növ məhsullar istehsal edilmiş, bununla əlaqədar xarici ticarətin coğrafiyası daha da genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Həmin dövrdə Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparmış, qeyri-neft məhsullarının ixracı 4,2 dəfə artmışdır.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkədə qeyri-neft sənayesinin inkişafına böyük təkan vermişdir. Belə ki, 2004-2018-ci illər ərzində innovasiya xarakterli texnologiyaların tətbiqi davam etmiş, yeni müəssisələr yaradılmış, onların istehsal potensialı artmış, ölkə sənayesində 2,6 dəfə real artım qeydə alınmışdır.

Həmin dövrdə ölkədə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi də öz müsbət nəticəsini vermişdir. Bunu statistik rəqəmlər də təsdiq edir. Məsələn, 2003-cü ildə sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 56,8 faiz təşkil edirdisə, hazırda bu rəqəm 80 faizdən çoxdur. Bütün bunlar sənayedə işgüzar mühitin yaradılmasına, kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyi sayəsində mümkün olmuşdur.

Regional inkişafla bağlı qəbul olunan dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə bölgələrdə sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Hazırda regionlarda 9 sənaye park və məhəllələri fəaliyyət göstərir. Bu sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı faktiki olaraq qoyulub və həmin layihələrin yerinə yetirilməsi sayəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda, bu layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi xarici bazara ixrac edilib.

Dövlət proqramlarının icrasında aqrar sektorun inkişafına geniş yer ayrılıb. Bu hesaba ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşmışdır. Həmin müddətdə iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılmış, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilmişdir.

Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda 33 rayon üzrə 258,3 min hektar ərazidə 51 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam edir. Hazırda 22 aqropark fəaliyyət göstərir. Cari ilin sonuna qədər daha 11 aqroparkın fəaliyyətə başlaması nəzərdə tutulub. Həmin layihələrin icrası sayəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq. Eyni zamanda, bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yeri açılacaq.

İnvestisiyaların təşviqi sayəsində də görülən işlər də regionların inkişafına müsbət təsir göstərir. İnvestisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bugünədək 400-ə yaxın layihə təşviq olunub və bunların sayəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Bu, regionlarda 16 mindən çox yeni iş yerinin açılmasına imkan yaradıb.

Bununla yanaşı, Prezidentin ənənəvi kənd təsərrüfatı sahələrinin - pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin inkişafı istiqamətində imzaladığı sərəncamlar, həmçinin istehsalçılara yetişdirdiyi məhsula görə subsidiyaların verilməsi istehsal və ixrac potensialının artırılmasına, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsinə geniş imkan yaratmışdır. Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər sayəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmişdir. Ərzaq məhsullarının istehsalı artmaqla yanaşı, ixrac imkanları da genişlənmişdir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## *Muriel PENEVEYRE:* "Naxçıvan çoxşaxəli iqtisadiyyata malikdir"

Mən bu ilin iyul ayının sonunda İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri təyin edilmişəm. Çox sevinirəm ki, Azərbaycanın bölgələrindən ilk dəfə məhz Naxçıvana səfər etmişəm.

Bu sözləri AZƏRTAC-a Naxçıvan Muxtar Respublikasında rəsmi səfərdə olan İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Muriel Peneveyre deyib.

Diplomat bildirib ki, burada bir sıra yüksəksəviyyəli görüşlər keçirib. Görüşlərdə gələcək əməkdaşlıq imkanları barədə müzakirələr aparılıb.

Səfir Naxçıvandakı istehsal və sənaye müəssisələrində də olub, İsveçrə hökumətinin dəstəyi ilə bərpa olunan kəhrizə baxıb. O, kəhrizin yaxşı fəaliyyət göstərdiyini və əhalinin də ondan səmərəli şəkildə istifadə etdiyini vurğulayıb. Muriel Peneveyre səfər çərçivəsində Naxçıvan Biznes Mərkəzi ilə də tanış olduğunu, çoxşaxəli iqtisadiyyata malik Naxçıvan barədə ətraflı məlumat aldığını bildirib.

"Səfərim birgünlük olduğundan muxtar respublika ilə tanışlıq imkanım o qədər də çox olmadı. Ümidvaram ki, mən buraya bir daha səfər edəcək və qədim diyarla daha yaxından tanış olmaq imkanı qazanacağam", - deyən səfir ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib.

## Sahibkarlar üçün təlim təşkil olunub

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOB-ların maliyyə savadlığının artırılması məqsədilə gənc və qadın sahibkarlar, o cümlədən biznes fəaliyyətinə yeni başlayanlar üçün "Maliyyə hesabatları və təhlili" mövzusunda təlim keçirib.



KOBİA-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM) tərəfindən maliyyə hesabatlarının hazırlanması, maliyyə vəziyyəti və onun nəticələri, mənfəət və zərər, pul vəsaitlərinin hərəkəti, maliyyə hesabatları əsasında qərarların qəbul olunmasına dair təqdimat keçirilib, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, KOBİA tərəfindən mikro, kiçik və orta biznes subyektləri üçün "ömür boyu öyrənmək" imkanlarının təmin edilməsi məqsədilə dövlət-özəl əməkdaşlığı çərçivəsində mütəmadi olaraq müxtəlif tədbirlər, o cümlədən təlim, seminar və treninqlər təşkil edilir, sahibkarlar maarifləndirilir.

## Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzində tarla günü keçirilib

Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun (BMTB ETİ), Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin (RAEİM) birgə təşkilatçılığı ilə aran bölgəsində pambıqçılıqla məşğul olan fermerlər üçün elmi-praktik seminar və tarla günü keçirilib.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, rayonlaşmış pambıq sortlarının intensiv becərmə texnologiyası, toxumçuluğun düzgün təşkili, xəstəlik və zərərvericilərə qarşı inteqrir mübarizə tədbirlərinə həsr olunmuş seminarda Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Tariyel Atamalıyev və Salyan RAEİM-in direktoru Sədrəddin İbrahimov rayon üzrə pambıq əkinlərinin vəziyyəti, sahələrdə zəruri aqrotexniki tədbirlər barədə məlumat veriblər. Bildirilib ki, Salyan RAEİM-in ərazisində yerli sortlarla yanaşı, 12 yunan sortunun elmi təcrübələri aparılır. "Gəncə-110" sortunun isə azonlaşdırılmış texnologiya üzrə toxumçuluq məqsədilə əkini həyata keçirilir. Qeyd olunub ki, gələcəkdə əldə olunmuş elmi nəticələr fermer təsərrüfatlarında tətbiq olunacaq.

AEİM-in şöbə müdiri Nicat Nəsirli, BMTB ETİ-nin direktoru Elçin Xəlilov, şöbə müdirləri Ələddin Tağıyev, Mahirə Vəliyeva, Kazım Hüseynov və Mahal Kazımov təcrübə sahəsində nümayişə çıxarılmış yerli və xarici sortların müqayisəli xüsusiyyətləri, onların intensiv becərilmə texnologiyası və toxumçuluğunun təşkili, pambıq əkinlərində zərərli orqanizmlərə qarşı mübarizə tədbirləri haqqında fermerlərə ətraflı məlumat veriblər. Bu məsələlərlə bağlı pambıqçı fermerlərin çoxsaylı sualları cavablandırılıb.

Sahədə keçirilən tarla günü çərçivəsində fermerlər Salyan RAEİM-in təcrübə sahəsində yerli sortların nümayiş əkinləri ilə tanış olublar. BMTB ETİ-nin mütəxəssisləri tarlada fermerlərə yerli sortların təsərrüfat əhəmiyyətli, xəstəlik və zərərvericilərə qarşı interqrir mübarizə tədbirləri barədə ən son yenilikləri əyani göstəriblər. Tədbirin sonunda iştirakçılara institutun alimləri tərəfindən hazırlanmış çoxsaylı maarifləndirici tövsiyələr və məlumatlandırıcı bukletlər paylanılıb.



# Yabanı bitkilərə yabanı münasibət

## Bu, meşələrimizi məhv edə bilər

Azərbaycanın təbiəti zəngindir. Təkcə meşələrimizdə 1536 cinsə aid olan 150 növ yabanı meyvə bitkiləri mövcuddur. Yabanı meyvələrdən adi qoz, alma, armud, zoğal, alça, əzgil, fındıq, xurma, yemişan, şabalıd və s. min tonlarla məhsul verir. Onu da qeyd etmək lazımdır ki, bu meyvələrdən 30 faizi istismar əhəmiyyətli məhsullardır. Bir qismi isə dövlət tərəfindən tədarük edilir.



Ölkəmizin təbii coğrafi xüsusiyyətləri müxtəlif olduğuna görə ayrı-ayrı regionlarda müxtəlif tip yabanı bitkilərə rast gəlinir. Ümumiyyətlə, ərazimiz zəngin floraya malikdir. Burada 4500-dən çox çiçəkli bitki növü yayılmışdır. Bitki növlərinin sayına görə Azərbaycanın florası Cənubi Qafqazda fərqlənir. Regionda bitən bitki növlərinin 66 faizi ölkəmizdə mövcuddur.

Təbiətimizin zənginliyini və müxtəlifliyini qorumaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ciddi addımlar atılır. Meşələrin İnkişafı Xidmətinin tabeliyində fəaliyyət göstərən mərkəzlər 2001-2018-ci illərdə tinglik sahəsinin yaradılması məqsədilə 2947 ton toxum tədarük etmişdir. Bunun nəticəsində ötən il yarım milyarddan artıq (521 milyon ədəd) ting yetişdirmək mümkün olmuşdur. Yalnız ötən bir il ərzində 175009 ha ərazidə meşəbərpa tədbirləri həyata keçirilmişdir. Aqrobağların salınması məqsədilə 58585 ha sahədə 108 milyon 146,86 min ədəd müxtəlif meşə və meyvə cinslərindən ibarət ağaclar əkilmişdir. Eyni zamanda ölkədə baramaçılığın inkişafı sayəsində 2016-2018-ci illərdə 1,6 milyon ədəddən çox tut tingləri yetişdirilmişdir.

Amma bu müsbət rəqəmlərin fonunda mənfi bir tendensiya da özünü büruzə verir. Meşələrdən güzəranlarına ruzi qatanlar var. Əgər onların meşəyə münasibəti qəbul edilən və bir qədər də mərhəmətli olsaydı, bu barədə danışmağa dəyməzdi. Lakin dövlətin meşələrin bərpası ilə bağlı gördüyü böyük işlərin əvəzində onların təbiətə sərt münasibəti bağışlanılmazdır.

Artıq bu aydan meşədə yabanı meyvələr yetişməyə başlayır. Bir azdan elə də böyük pul qazanmayan, amma güzəranlarına qəpik-quruş əlavə edən bir bölük adam düşəcəklər meşələrin canına və başlayacaqlar yemişanı, çaytikanını dərib satışa çıxarmağa. Həmişə meşə meyvələrini yığıb satanlar olub, amma indi bunu əvvəlki kim etmirlər. Yeni qaydalar "kəşf" ediblər: yemişan, çaytikanı ağacının budaqlarını qırıb, ya da elə kökündən baltalayıb meyvəsini dərirlər. Bütün meşəətrafı kəndlərin hərəsində 4-5 belə adam var ki, bir ayaqları meşədə, çay kənarlarında, o birisi də bazardadır. Qoy qazansınlar, buna kimsə yox demir. Amma ağacların kökünü kəsmək təbiətə qəsd etmək deyilmi?

55 il əvvəl oxuduğum kənd məktəbində Qubat adlı müəllimimiz var idi. Bizə biologiya dərsini hərdən məktəbin bağında, ağacların dibində keçərdi, qələm vurmağı, təbiəti sevməyi öyrədərdi. Qubat müəllim neçə ildir ki, dünyasını dəyişib. Ancaq dedikləri sırğa kimi bu gün də qulaqlarımızdan asılıb: "Bir budaq qıranda sanın ki, qolunuzu sındırdınız!"

Biz də müəllimin dediyindən ibrət alardıq, kəndimizin arxları boyu qovaq qələmləri əkərdik, bağımızda qələm vurardıq və sevinərdik ki, təbiəti qoruyuruq. Sonralar bu qovaqları kəsib ev tikdilər, dam bağladılar. Meşənin də başı ağrımadı balta səsindən. Amma indi belə deyil. Şəhərlər böyüdükcə insanlar nədənsə torpaqdan, təbiətdən aralı düşür, kənddən yadlaşırlar.

Birini qoyub, o birini deyək. Bu yay Bakıdan bir neçə bələdsiz adam gəlib kəndimizin meşələrini alt-üst ediblər. Danışırlar ki, bir kisə səhləb yığıb aparıblar. Min bir dərdin dərmanıdır. Bu səhləbin adı Qarabağda xarı bülbüldür. Çox növləri var, özü də yalnız Şuşada bitmir, Qubanın dağları da onun məskənidir. Xarı bülbülə orxideya da deyirlər. Hansı ölkədə bitirsə, o ölkədə çiçəyin adı ilə bağlı əfsanələr ayaq açıb yeriyir. Hətta monqol-tatarlar hərbi yürüşlərdə arxadan azuqə gəlməyəndə gündəlik 20 qram üyüdülmüş səhləb ununun hesabına bir gün döyüş qabiliyyətini saxlaya biliblər.

İnternet zəmanəsidir, hamı oxuyur. İndi canının qədrini bilənlərin də, meşə meyvələrinin nə olduğunu anlayanların da sayı artıb. Ölkənin şimalında bazarlara gələn şəhərlilər yemişanı, çaytikanını, səhləbi əlim yandıda axtarırlar. Vaxt vardı ki, yemişanı heç 50 qəpiyə da alan olmurdu. Amma indi bazara çıxarsan və ola bilər manat yarıma da, hətta iki manata da tapa bilməzsən. Çaytikanının qiyməti isə ceyran belindədir. Hər ikisinin tərkibində 50-yə yaxın mikroelement var. Bədənin immun qabiliyyətini gücləndirir, vitamin təchizatını qaydaya salır. Süfrəyə qoyulan çayı insana bayram ovqatı bəxş edir.

Amma iş burasındadır ki, bazarda tələbat artdıqca meşəyə cumanların sayı çoxalır. Əvvəl bir qədər mərhəmətli idilər, budaq qırmağa kiminsə əli gəlməzdi. İndi nədənsə zəmanə dəyişib, insanlar daha sərt olub. Gedirlər meşəyə, çaytikanının budağını kəsib qoyurlar qabaqlarına, sonra da qayçı ilə xırda salxımları kəsib yığırlar. Yemişanı dərmək bir qədər çətindir. Çünki ağacın hündürlüyü 6-7 metrdən yuxarı olur və ona nərdivanla çıxmaq çətindir. Bir də kimdir meşəyə dalınca nərdivan sürüyən. Çəmini tapıblar - ya iri budaqları aşağıdan baltalayıb atırlar, ya da kökündən ağacı vururlar. O baxır kimin insafı hara qədərdir.

Payızda meşəyə cır alma, armud dalınca gedənlər də az deyil. Bağçılıq sürətlə inkişaf edir, artıq fermerlər yaxşı bilirlər ki, kənardan ölkəyə gətirilən qələmlərdən fatıya tuman olmayacaq. Gətirilən qələmlərdən meşə cırlarına vurulan peyvəndlər daha dözümlü, uzunömürlü, həm də məhsuldar olur. Ona görə də meşədən cır alma, armud gətirənlər kifayət qədərdir. Ümumiyyətlə, meşələrdən indi ağlasığmaz məqsədlər üçün istifadə edilir. Kövşənlərdən ot çalınır, pətəklər və arıxanalar yerləşdirilir, yabanı meyvələr, göbələk, eləcə də palıd qozası, dərman bitkiləri, texniki xammal, mamır, meşə döşənəyi, qarğı, qamış yığılır.

Amma göründüyü kimi, bütün bu sərvətləri qorumaq üçün cərimələr, sərt qaydalar təsir etmir. Həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər yemişan və çaytikanı kolluğuna meşəbəyi təyin etmək gücündə deyil. Odur ki, başqa tədbirlər görmək, xüsusən maarifləndirmə işini gücləndirmək lazımdır. Bunun üçünsə KİV-in imkanları səfərbər edilməli, orta məktəblərdə ekoloji təbliğata diqqət artırılmalıdır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Bakının işğaldan azad edilməsindən 101 il keçir

# Zəfər günü



*Əvvəli 1-ci səh.*

Bütün bunlara baxmayaraq, Osmanlı dövləti dərhal Azərbaycana kömək etmək haqqında qərar verir. Ənvər Paşanın 29 yaşındakı qardaşı Nuru Paşa yardıma göndəriləcək orduya başçı təyin edilir.

Beləliklə, Azərbaycanın müstəqilliyini təmin edəcək Qafqaz İslam Ordusu yaradılır. Nuru Paşanın başçılıq etdiyi ordu artıq 1918-ci ilin aprelində Zəngəzurda idi. Nuru Paşa ruslarla, ingilislərlə, ermənilərlə vuruşaraq mayın 25-də Gəncəyə daxil olur. Gəncə əhalisi Osmanlı ordusunu sevinclə qarşılayır. Qafqaz İslam Ordusu düşmənin ciddi müqaviməti ilə qarşılaşsa da, Gəncə qısa zamanda fəth edildi, sakitlik yaradıldı. Bu döyüşlərdə 112 əsgər şəhid oldu. 3 gün sonra mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildi və Gəncə müvəqqəti paytaxt oldu.

### Növbədə Bakı idi...

Azərbaycanın paytaxtı Bakı olmalı idi. Şəhər isə işğal altındaydı. Nuru Paşa əvvəlcə bütün heyəti azərbaycanlılardan ibarət bölüklər yaratdı və onları Qafqaz İslam Ordusuna birləşdirdi. Növbə Bakının işğaldan azad edilməsi idi. Amma bölüklər kifayət deyildi. Buna görə Nuru Paşa Osmanlıdan hərbi dəstək qüvvəsi istədi. Qısa zamanda dəstək qüvvələrin gəlməsi ilə Qafqaz İslam Ordusu Bakıya doğru irəlilədi. Bu vaxt ordunun sayı 20 minə çatdı.

Bakının şimalındakı Şamaxı və Mərəzə ilə cənubundakı Salyan-Neftçala bölgəsini düşməndən təmizlədikdən sonra Qafqaz İslam Ordusu Bakının 60-70 kilometrliyinə qədər yaxınlaşdı. Hərbi birləşmələr ağır vəziyyətdə irəliləməkdə davam edirdi. Ordu silah, sursat, rabitə, nəqliyyat, su və ərzaq çatışmazlığı kimi çətinliklərlə üzləşmişdi. Əsgərlərin ehtiyacını ödəmək üçün qurulan mərkəzlərlə ordu arasındakı məsafə də artmışdı. Düşmənin ordu birləşmələri geri çəkilərkən rabitə xətlərini, dəmir və şose yolu ətrafında işə yarayacaq su və ərzaq mənbələrini məhv edirdilər. Qafqaz İslam Ordusunun istehkam qurmaq imkanları məhdud idi. Bunun üçün əllərində lazımi ləvazimat çatışmırdı. Düşmənin məhv etdiyi rabitə xətlərini və dəmir yolunu istifadəyə yararlı hala salmağa çalışırdılar. Amma ixtisaslı mütəxəssis tapmaq çətin olduğundan bu işlər ləng gedirdi.

### Həlledici hücum əmri

Sentyabrın 13-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru Paşa Bakı üzərinə həlledici hücum əmrini imzaladı. Həmin gün axşam Qafqaz İslam Ordusu komandirinin "Sarıxaçlı kilsə istiqamətində irəli" hücum əmri verildi. Sentyabrın 14-də səhər tezdən, hələ günəş çıxmamış xilaskar ordu Şabanı dağlarından enərək Yasamal yamaclarına çıxdı və düşməni məhv edərək şəhərin girişində dayandı. Otuz saatlıq qanlı vuruşdan sonra ağ bayraqlı avtomobildə döyüş yerinə gələn düşmənin qərb cəbhəsi üzrə erməni komandiri şəhəri təslim etməyə hazır olduqlarını bildirdi.

Bununla da "Sentrokaspi diktaturası" darmadağın edildi və Bakı anti-Azərbaycan qüvvələrin əlindən xilas edildi. Bu döyüşlərdə 1130 Osmanlı əsgəri şəhid oldu. Bakı ilə yanaşı, Azərbaycanın bir çox bölgəsində onların xatirə məzarlıqları var...

1918-ci il sentyabrın 17-də - Fətəli Xan Xoyski kabinetinin təşkilindən üç ay sonra cümhuriyyət hökuməti Gəncədən Bakıya köçdü. Bakı rəsmən paytaxt elan olundu.

O zaman Azərbaycan hökumətinin başçısı Fətəli Xan Xoyski Bakının azad edilməsi münasibətilə Nuru Paşaya yazırdı: "Cəsur türk əsgərlərinin Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".

### Qəhrəman ordunun xidmətləri heç zaman unudulmadı

Bakının azad edilməsindən ay yarım sonra Birinci Dünya müharibəsində Almaniya ilə müttəfiq olan Osmanlı imperiyası məğlubiyyətlə üzləşir və oktyabrın 30-da Mudros sülh müqaviləsi imzalanır. Bu sazişin Azərbaycana dair bir sıra şərtləri vardı.

Belə ki, 11-ci maddəyə görə, türk ordusu tezliklə Azərbaycandan çıxmalı, 15-ci maddəyə əsasən, Cənubi Qafqaz dəmir yolu, Bakı və Batum tam şəkildə müttəfiqlərin sərəncamına verilməli idi. Mudros müqaviləsinin 12-ci maddəsində göstərilirdi ki, Cənubi Azərbaycandakı və Qafqazdakı Osmanlı qüvvələri Birinci Dünya müharibəsi öncəsindəki sərhədlərə qədər geri çəkilməli idi.

Noyabrın 8-də ingilis hökuməti Osmanlı dövlətindən Qafqazdakı bütün türk qüvvələrinin, o cümlədən Nuru Paşa komandanlığındakı Qafqaz İslam Ordusunun 1914-cü il hüdudlarına geri çəkilməsini tələb etdi. Bu dövrdə Qafqazda və Cənubi Azərbaycanda təxminən 73 min nəfərə qədər türk əsgəri vardı. Nuru Paşa Qafqaz İslam Ordusunun komandanlığından istefa verdiyini və Azərbaycan Ordusunun xidmətinə keçdiyini bildirdi.

Beləliklə, Qafqaz İslam Ordusu noyabr ayından etibarən Bakını və Azərbaycanı göz yaşları içərisində tərk etmək məcburiyyətində qaldı. Amma Azərbaycan xalqı bu qəhrəman ordunun xidmətlərini heç bir zaman unutmadı. Qafqaz İslam Ordusundan Azərbaycanda qalan əsgərlərini də, şəhid olanlarını da illərlə yaşadığı ağır və məşəqqətli zamana rəğmən içində, özündə yaşatdı, şəninə nəğmələr qoşdu: "... Nə vaxtdır Bakının gözü yoldadır, bir qonaq gələsiz, bizə, lalələr".

### Qardaş məzarlığı...

Bu gün Bakının ən hündür nöqtəsində, ölkəmizin bölgələrində Azərbaycan və Türkiyənin övladlarının müqəddəs məzarlıqları var. Qürur duyduğumuz, vətənimizin müstəqilliyi, daim var olması uğrunda canlarından keçən qəhrəman igidlərin şəhidlik ünvanları...

Amma bu müqəddəs məzarlıqda uyuyan şəhidlərin ruhları narahatdır, düşmən tapdağında qalan Qarabağın harayındadır...

O gün də uzaqda deyil ki, ulu sələflərinin yolunu davam etdirən mərd oğullarımız sayəsində yenidən düşmən öz layiqli cavabını alacaq və Azərbaycanın Qarabağ adlı yarası da sağalacaq...

Və qardaş məzarlıqlarının üzərində dalğalanan ay-ulduzlu qoşa bayraqlar yenidən zəfər nəğməsi hayqıracaq dünyaya...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatının medalları ictimaiyyətə təqdim olunub

Sentyabrın 16-22-dək Bakının evsahibliyi edəcəyi bədii gimnastika üzrə 37-ci dünya çempionatının medalları ictimaiyyətə təqdim olunub.




AZƏRTAC xəbər verir ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatın medalları Beynəlxalq Gimnastika Federasiyasının loqosu formasında hazırlanıb. Ümumilikdə doqquz dəst medal uğrunda 61 ölkədən 300-dən artıq gimnast mübarizə aparacaq.

Milli Gimnastika Arenasında keçiriləcək dünya çempionatında ölkəmizi 9 gimnast təmsil edəcək. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə edəcəklər. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Bu ilin çempionatında çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Tokioya vəsiqə qazanacaq.

## Bədii gimnastika üzrə 37-ci dünya çempionatına halqa və topla hərəkətlərdə təsnifat yarışları ilə start veriləcək

Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatının təqvimi açıqlanıb.

AZƏRTAC xəbər verir ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionata sentyabrın 16-da start veriləcək. Yarışın birinci günündə gimnastlar fərdi proqramda halqa və topla təsnifat mərhələsində güclərini sınayacaqlar. Ertəsi gün halqa və topla təsnifat, həmçinin final yarışları keçiriləcək. Sentyabrın 18-19-da gürzlər və lentlə təsnifat yarışları təşkil olunacaq. Eləcə də gürzlər, lentlə və komanda hesabında qaliblər müəyyənləşəcək. Çempionatın beşinci günündə - sentyabrın 20-də çoxnövçülük üzrə final yarışları baş tutacaq. Habelə "Prize of Elegance" mükafatının qalibi müəyyənləşəcək.

Sentyabrın 21-də qrup hərəkətləri komandaları mübarizəyə qoşulacaqlar. Gimnastlar 5 top, 3 halqa və 2 cüt gürzlə yarışacaqlar. Günün sonunda çoxnövçülük üzrə qaliblər mükafatlandırılacaq.

Ayın 22-də çempionata 5 top, 3 halqa və 2 cüt gürzlə final yarışları ilə yekun vurulacaq.

Milli Gimnastika Arenasında keçiriləcək dünya çempionatında ölkəmizi 9 gimnast təmsil edəcək. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) lisenziya əldə etmiş olacaqlar. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Olimpiadaya vəsiqə qazanacaq.

Altmış bir ölkədən 300-dən artıq gimnast çempionatda 9 dəst medal uğrunda mübarizə aparacaq.

## 16 Sentyabr Ümumdünya Ozon Qatının Mühafizəsi Günüdür

# Dünya ictimaiyyətini narahat edən ekoloji problem

*Yay fəslinə xas olmayan soyuq, yağışlı, küləkli havalar birdən-birə istiləri qovub aparır. Sanki payız öz sırasını pozaraq erkən gəlir. Ancaq o da çox duruş gətirə bilmir. İki-üç gün sonra yenidən qızmar istilər təbiətin yay fəsli olduğunu yada salır. Havaların kəskin dəyişməsi insanları çaş-baş salır. Mütəxəssislər bildirirlər ki, ozon təbəqəsinin getdikcə nazilməsi yalnız istilik yaratmır, həm də kəskin soyuqlara, fəsillərin yerinin dəyişməsinə səbəb olur.*



### Alimlər xəbərdarlıq edir

Tədqiqatçılar hələ 1971-ci ildə ozon qatının azala biləcəyi barədə xəbərdarlıq ediblər. Amerikalı alim Conson və alman alimi diqqətə çatdırıblar ki, reaktiv təyyarələrdən çıxan azot oksidləri ozonla katalitik reaksiyaya girib onu məhv edir. Sonrakı tədqiqatların nəticələrindən isə yalnız azot oksidlərinin deyil, karbohidrogenlərin, xüsusilə də freon adlanan xlorlu karbohidrogenlərin ozon olan mühitə düşdükdə günəş şüalarının təsiri ilə ozonun zəncirvari məhvinin baş verdiyi məlum oldu.

Ekoloji problemin qarşısının alınması məqsədilə 1982-ci ilin yanvarında BMT-nin Ətraf Mühit Proqramı "Ozon qatının qorunması haqqında Qlobal Konvensiya" layihəsinin hazırlanması üçün xüsusi hüquqi və texniki ekspertlər qrupunun ilk müşavirəsini düzənlədi. Ümumdünya Meteorologiya Təşkilatı problemin elmi xülasəsinin hazırlanmasında, konvensiya üçün prinsipial əsasların müəyyənləşdirilməsində əhəmiyyətli işlər həyata keçirdi.

Üç il davam edən danışıqların ardınca 1985-ci ildə BMT tərəfindən "Ozon qatının qorunmasına dair Vyana Konvensiyası" qəbul olundu. Konvensiyanın 21-ci maddəsinə görə, ətraf mühitin ozon qatının dağılması ilə əlaqədar insan sağlamlığını mənfi təsirlərdən qorumağa dair ölkələr öhdəliklər götürdülər. 1987-ci ilin sentyabrında Monreal şəhərində imzalanan tarixi protokola ozon qatını dağıdan maddələrin istehsal və istifadəsinin mərhələlər üzrə azaldılmasının tənzimlənmə tədbirləri daxil edildi.

### Beynəlxalq miqyasda tədbirlər həyata keçirilir

İngilis alimlərindən biri 1985-ci ildə "Təbiət" adlı jurnalda ozon qatının ölçülməsi haqqında öz nəticələrini dərc etdirdi. O göstərdi ki, 1956-cı ildən başlayaraq yaz aylarında Antarktida üzərində ozonun miqdarı 1985-ci ilədək təxminən iki dəfə azalıb. Nəticələr peyklər vasitəsilə aparılan ölçmələrlə təsdiqləndi. Bu fakt dünya ictimaiyyətini ciddi narahat etməyə başladı. Çünki planetimizdə bütün canlı həyatı qoruyan ozon qatıdır. 400 milyon ildən artıq mövcud olan, Yer səthindən 10-16 kilometr hündürlükdə yerləşən, günəşdən yayılan təhlükəli ultrabənövşəyi şüaları filtrasiya edən bu qat son 100 ildə dağılmaq təhlükəsi ilə üzləşib. Səbəb sənayenin inkişafı ilə əlaqədar külli miqdarda zərərli kimyəvi maddələrin atmosferə buraxılmasıdır.

BMT-nin Baş Assambleyasının 1994-cü ildə qəbul etdiyi qətnaməyə əsasən, 16 sentyabr Ümumdünya Ozon Qatının Mühafizəsi Günü elan edildi. Konvensiyaya 173 dövlət qoşuldu. Hazırda bu əhəmiyyətli sənədin tələblərinin yerinə yetirilməsi məqsədilə öhdəliklər götürən ölkələrin sayı 200-ə yaxındır.

Yer üzərində həyat davam edir. Ancaq ozon qatı normal vəziyyətə çatdırılmayanadək bütün canlılar bu problemlə bağlı mənfi fiziki təsirlərə məruz qalacaqlar. Buna görə də beynəlxalq miqyasda azot oksidlərinin, xlorlu karbohidrogenlərin atmosferə buraxılmasını azaltmaq üçün sazişlər bağlanır, tədbirlər həyata keçirilir. Müntəzəm olaraq ozon qatının müşahidəsi ilə ABŞ-ın Milli Aeronavtika və Kosmik Agentliyi (NASA), Ümumdünya Meteorologiya Təşkilatı, Böyük Britaniya, Kanada, Yeni Zelandiya və digər ölkələrin bir sıra təşkilatları məşğul olur.

Ölkəmiz "Ozon qatının qorunması haqqında Vyana Konvensiyası"na, "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"na və bu protokola edilmiş düzəlişlərə dair sazişə 1996-cı ildən qoşulub. Bu beynəlxalq müqavilələrə qoşulmaqla Azərbaycan qlobal ekoloji problem olan ozon qatının qorunması üçün üzərinə öhdəliklər götürüb. Həmin öhdəlik sənaye müəssisələri və məişətdə ozondağıdıcı maddələrlə (ODM) təchiz edilmiş cihaz və avadanlıqların, xüsusilə soyuducu və kondisionerlərin ODM olmayan daha müasir texnologiyalarla əvəzlənməsindən, yaşıl iqtisadiyyata mərhələli keçidin təminindən, ODM-li cihaz və avadanlıqların respublikaya idxalının getdikcə azaldılmasına və tamamilə qadağan edilməsinə nail olunmaqdan ibarətdir.

### Proqnozlar hələ də ürəkaçan deyil

Hər il sentyabrın 16-da bəşəriyyətin diqqəti bir daha bu problemə yönəldilir. Planetimizi günəşin məhvedici radiasiyasından, canlıları ultrabənövşəyi şüalanmadan qoruyan ozon qatının mühafizəsinin bütün dünya ölkələri üçün ən vacib məsələlərdən olduğu yenidən nəzərə çatdırılır. Bu təbəqə ümumi ekoloji tarazlıq, Yer üzərində temperatur rejiminin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Ozon qatının dağılması flora və faunanın məhvinə, insanlar arasında göz və xərçəng xəstəliklərinin geniş yayılmasına, həmçinin bütün canlıların immun sisteminin zəifləməsinə və nəticədə müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

Alimlərin xəbərdarlıqlarından biri də budur ki, ozonun ümumi miqdarının azalması, ultrabənövşəyi şüalanmanın artması buzlaqların əriməsi ilə nəticələnir. Son 100 ildə okean sularının səviyyəsi 10-15 sm yüksəlib və Yer kürəsində orta illik temperaturun 0,6 dərəcəyədək qalxması qlobal istiləşmə problemi yaradıb. Dünyanın inkişaf etmiş dövlətləri birlikdə iqlim dəyişikliyi ilə mübarizə proqramları hazırlayır, bəyanatlar qəbul edir, layihələr həyata keçirirlər. Verilən proqnozlar isə hələ də ürəkaçan deyil. Zədələnmiş ozon qatı bu vəziyyətdə qalarsa, problemlərin qarşısı alınmazsa, yaxın illərdə planetimizdəki bir çox bitki və heyvan növlərinin nəslinin kəsiləcəyi ilə bağlı mütəxəssislər xəbərdarlıq edirlər.

Kəskin problemlər yaradan, öz evi olan Yer kürəsini təhlükəyə məruz qoyan insanların özləridir. Yaratdığı çətin vəziyyətlə isə digər canlılarla yanaşı, öz həyatını, sağlamlığını təhlükəyə atır. Yer üzündə, dəniz və okeanlarda canlı növləri tükənməkdə, təbii ehtiyatlar, içməli su, yeraltı və yerüstü nemətlər azalmaqdadır. Elə çıxış yolunu da bəşər övladları özləri axtarmalı, ölkəsindən, irqindən, dilindən və dinindən asılı olmayaraq hər kəs əl-ələ verib Yer kürəsini qorumalıdır. Ona görə də ozon qatının mühafizəsindən bir gün deyil, hər vaxt danışılmalı, problemin həlli yolları aranmalıdır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Beynəlxalq Sahilyanı Təmizlik Günü ilə əlaqədar ictimai çimərlikdə təmizlik aksiyası









Sentyabrın 14-də IDEA İctimai Birliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, "Təmiz Şəhər" ASC və Bakı Nəqliyyat Agentliyinin birgə təşkilatçılığı ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, Beynəlxalq Sahilyanı Təmizlik Günü, eyni zamanda, çimərlik mövsümünün bitməsi ilə əlaqədar təşkil edilən təmizlik aksiyası Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Buzovna qəsəbəsində yaradılmış ictimai çimərlikdə təşkil olunub. Aksiyaya 400 nəfərdən çox könüllü gənc qoşulub.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Qeyd edək ki, IDEA İctimai Birliyi tərəfindən paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklərin yaradılmasına cari ilin avqust ayında başlanıb. Birliyin təşəbbüsü ilə Şıx, Goradil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbə çimərliklərinin ərazisində olmaqla ümumilikdə 6 ictimai çimərlik əhalinin istifadəsinə verilib. Sözügedən çimərliklərdə insanların rahat, təmiz və təhlükəsiz məkanda pulsuz istirahət edə bilməsi üçün oturacaqlar və sanitar qovşaq quraşdırılıb, voleybol üçün meydança salınıb, zibil qutuları yerləşdirilib.

"Təmiz Şəhər" ASC-nin mətbuat xidmətinin rəhbəri Elmar Məlikov bildirib ki, ölkəmizdə son dövrlərdə ətraf mühitin mühafizəsi ilə bağlı çox böyük işlər və layihələr reallaşdırılır: "IDEA İctimai Birliyi vətəndaş cəmiyyəti adından çıxış edərək daim belə ekoloji təmizlik aksiyaları təşkil edir. ASC "Təmiz Şəhər"də bu layihələrə, aksiyalara biganə qalmır. "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 14-cü aksiyadır. Bu tədbirdə də 400-dən artıq gəncin iştirakı bu işə böyük maraqdan xəbər verir. Aksiya zamanı zəruri sanitar ləvazimatlarla təmin olunmuş iştirakçılar çimərlikdən topladıqları tullantıları birgə çeşidləyərək çimərliklərdə ən çox müşahidə olunan zibilləri müəyyən ediblər. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika da cəlb olunub. Daha sonra bütün tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil veriləcək".

Könüllülər Azər Şükürov, Jalə Şərifova, Elman Əliyev və digərləri belə ekoloji aksiyaların ətraf mühitin və biomüxtəlifliyin qorunması baxımından əhəmiyyətini yüksək qiymətləndiriblər. Onlar bu nəcib təşəbbüsə, eləcə də aksiyada gənclərin fəal iştirakı üçün yaradılmış imkana görə IDEA İctimai Birliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları DJ-lərin səsləndirdiyi musiqi sədaları altında çimərlikdən 3 tona yaxın tullantı toplayıblar. Daha sonra tullantılar çeşidlənərək çimərliklərdə ən çox müşahidə olunan zibillər müəyyən edilib.

IDEA İctimai Birliyi yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edir. Birlik bütün təbiətsevərləri ekoloji problemlərin həlli istiqamətində təşkil edilən aksiyalara biganə yanaşmamağa və ətraf mühitin qorunmasına öz töhfələrini verməyə çağırır.

Dünya olduğu kimi

# “Şeytan üçbucağı”nın sirri

**Ora dünyanın ən müəmmalı, haqqında qeyri-adi əhvalatlar dolaşan məkanlarından biridir. Sirri indiyə qədər də tam olaraq açılmayıb...**
**Orada baş verən qəribə hadisələr barədə çoxları eşidib. Müxtəlif gəmi və təyyarələri, hətta insanları udan bu yerlə bağlı rəvayətlər bütün dünyada dolaşıb. Lakin oranın necə bir zona olduğunu çox adam bilmir. “Ölüm üçbucağı”, “Şeytan üçbucağı” adlandırılan sirli Bermud üçbucağından söhbət açacağıq.**



Bermud üçbucağı Atlantik okeanının şimalında 3 şərti xətti əhatə edən üçbucaq formasında olan sahədir. Bu zonadan şimalda Bermud adaları, qərbdə Mayami, cənubda Puerto-Riko yerləşir. Təqribən 1,2 milyon kvadratkilometr sahəni tutur. Bu sahə gəmilərin, qayıqların və təyyarələrin itdiyi yüksək qəza bölgəsi kimi qeyd olunub.

Bermud adaları ilk dəfə 1505-ci ildə ispan dənizçisi Xuan de Bermudes tərəfindən kəşf olunub. Məhz onun şərəfinə adaya Bermud adı verilib. Atlantik okeanının bu müəmmalı sahəsi də elə Bermud üçbucağı adlandırılıb. Ora həm elmi məqsədlə, ciddi niyyətlə, həm də sensasiya axtarışı ilə onlarla ekspedisiya gedib. Saysız-hesabsız fərziyyələr irəli sürülüb, çoxlu kitablar yazılıb, amma bu üçbucağın sirri hələ də tam açılmayıb.

Bəzi tarixçilər hesab edirlər ki, bu üçbucağın ilk qurbanı Xristofor Kolumbun donanması olub. Lakin tarixdə ilk dəfə olaraq “Bermud üçbucağı” ifadəsini 1964-cü ildə Vinsent Qaddis adlı amerikalı yazıçı “Arqosy” jurnalında işlədib və onun faktiki sahəsinin Mayami, San Xuan, Puerto-Riko və Bermud adalarının birləşməsi kimi geometrik olaraq göstərib. Lakin digər alimlər onun bu fikirlərini heç də ciddiyə almayıblar.

Bermud üçbucağında baş verən ilk anormal hadisə 1946-cı ildə elə Vinsent Qaddisin ABŞ hərbi donanmasına məxsus “Flight-19” təyyarələrinin müəmmalı şəkildə itməsi haqqında yazdığı məqalənin dərci ilə üzə çıxıb. İçərisində 14 ekipaj üzvü olan beş bombardmançı təyyarə həmin ərazidə məşq uçuşu zamanı radarın ekranından itib. On üç heyət üzvü ilə onların axtarışına yollanan digər təyyarə də yoxa çıxıb.

1950-ci ildə isə “Associated Press” xəbər agentliyinin müxbiri Edvard Van Vinklın Bermud üçbucağındakı digər sirli qeybolmaları xatırlatması və bu ərazini “Şeytan dənizi” adlandırması ilə mövzu yenidən aktuallaşır.

Dilçilik üzrə müəllim Çarlz Berlits 1974-cü ildə “Bermud üçbucağı” adlı kitab dərc edir. Bestsellerə çevrilən kitab sayəsində “Bermud üçbucağı” ifadəsi beynəlxalq populyarlıq qazanır, ora hər kəsin bildiyi və çəkindiyi yer kimi tanınır. Həmin kitabda itmiş şəhər Atlantida haqqında da məlumatlar var.

Sözügedən zonada son 27 ildə mindən çox adam həlak olub. Lakin axtarışlar zamanı bir dənə də olsun meyit və digər əlamətlər aşkarlanmayıb. Son 40 ildə isə 100-dən çox təyyarə və gəmi itib. Bəzən təyyarə və ya gəmilərin birdən yoxa çıxması, yenidən görünməsi, vaxtından əvvəl təyinat yerinə çatması kimi hadisələr də baş verib.

Təbii ki, həmin ərazidən gəmilərin itməsini aydınlaşdırmaq üçün elm adamlarının inkişaf etdirməyə çalışdıqları nəzəriyyələr mövcuddur. Məsələn, dənizin altında yüksək şəkildə mövcud olan metan qazının, ildırım, elektrik qığılcımı və ya şimşəklə qarşılıqlı təsiri nəticəsində böyük bir partlayışla gəmini və ya təyyarələri məhv etdiyini düşünənlər var. Amma metan onsuz da təbii olaraq ətrafımızda mövcuddur və bu günə qədər dünyanın heç bir yerində belə dağıdıcı hadisə, partlama müşahidə olunmayıb, əlavə olaraq Bermud üçbucağında metan olduğu ilə bağlı heç bir məlumat yoxdur.

Bəzi alimlər qabarma-çəkilmə prosesini bu hadisələrin əsas səbəbi kimi göstərir. Və ya pilotların istiqamətlərini tapmalarına mane olan geomaqnit pozuntuları da səbəb ola bilər. Buradakı maqnit sahəsi gəmilərdəki elektrik siqnallarına zərər verdiyinə və ya kompasları xarab etdiyinə görə onları səhv istiqamətə yönəldir. Ancaq pilotlar elektron naviqator olmadan da təyyarəni idarə edə bilirlər. Həm də bu fərziyyə gəmilərin yox olmağını açıqlamır. Üstəlik, bölgədə aparılan araşdırmalar hər hansı bir maqnit olduğunu göstərmir.

Bəs həqiqətən də ortada açıqlanması lazım olan bir sirr varmı? Larry Kusche adlı jurnalist bu sualı ortaya qoyduqda təəccüblü bir cavabla qarşılaşıb. O, bölgədə baş verən hadisələri təkrar-təkrar araşdırıb və sonunda onların ya səhv danışıldığını, ya da uydurma olduğunu ortaya çıxarıb. Hər şeyi açıqlayan “The Bermuda Triangle Mystery Solved” (“Bermud üçbucağının sirri açıldı”) kitabında Kusche yazır ki, çox az sayda yazıçı bu haqda yazmazdan əvvəl araşdırma aparıb, bəzi yazıçılar isə məlumatları əvvəlki məqalələrdən, kitablardan götürüb eynilə öz yazılarına əlavə edib: “Təəssüf ki, Berlits də bu səhvi edib. Bəzən “yox olduğu iddia olunan” gəmilər və təyyarələr haqqında heç bir məlumat tapılmır. Yəni bunların hamısı həmin yazıçıların xəyalından başqa heç bir yerdə mövcud olmayıb. Bəzi hadisələrdə Berlits və digərləri gəmilərin şiddətli fırtınalar nəticəsində batdığını qeyd etməyiblər. Elə hadisələr də olub ki, gəmi və təyyarələr əslində Bermud üçbucağından kənarda batıb”.

Larry onu da qeyd edib ki, Bermud üçbucağının olduğu bölgə sərnişin və yük gəmilərinin tez-tez keçdiyi bölgədir. Avropa və Şimali Amerika arasında hərəkət edən gəmilər buradan keçdiyindən belə hadisələr tez-tez yaşana bilər, ancaq son zamanlar heç bir hadisə yaşanmayıb: “Bermud üçbucağı yalanının onillərdir ortaya çıxarıldığına baxmayaraq, hələ də yeni kitablarda “açılmamış sirr” olaraq təqdim olunur. Əlbəttə ki, bunu edənlər əksərən gerçəklərdən çox sensasiyalı hadisələrə üstünlük verən yazıçılardır. Nəticə olaraq zaman qapılarına, Atlantidaya, yadplanetlilərin bazalarına, geomaqnit pozuntularına, qabarma-çəkilmə dalğalarına və başqa şeylərə müraciət etmək lazım deyil. Bermud üçbucağının tək sirri var - o da başdansovdu araşdırmalar və yalançı məlumatlardır”.

Böyük Britaniya alimləri isə ötən il Bermud üçbucağının sirrini tapdıqlarını açıqlayıblar. Alimlərin qənaətinə görə, həmin ərazidə gəmilərin yox olmasının səbəbi hündürlüyü 30 metrə qədər çatan “qatil dalğalar” ola bilər.

Azərbaycandan da bu sirli obyektə elmi tədqiqat üçün iki geoloq alim gedib - Rüstəm Babayev və Xəlil Əliyulla. 1982-ci ildə SSRİ Elmlər Akademiyasının Okeanologiya İnstitutu elmi tədqiqat aparmaq məqsədilə Bermud adalarına 3 aylıq ekspedisiya təşkil edir. Səfərə digər ölkələrlə yanaşı, Azərbaycandan da iki alim dəvət olunur. O zaman Geologiya İnstitutunda geologiya-mineralogiya elmləri namizədi kimi böyük elmi işçi vəzifəsində çalışan Rüstəm Babayev sağ olarkən media orqanlarının birində özünün Bermud səfəri barədə bunları deyib: “...Orada tədqiqatlar aparmaq üçün bizə bir gün kifayət edirdi. Lakin möcüzəli üçbucaq “oyanaraq” qonaqlarını elə ilk gündə öz xarakterinə uyğun qarşıladı. Əvvəlcə küləksiz hava şəraitində sunami dalğaları nəhəng “Vityaz”ı yellətdi. Masaların üzərindəki yüngül əşyalar - çəngəl, qaşıq, qələm, stəkan, kiçik ləvazimatlarımız sürüşməsin deyə yaş parçalardan süfrə kimi istifadə etdik. Bir az sonra tayı-bərabəri olmayan, dəhşətli fırtınanın yaxınlaşdığı məlum oldu. Bu məqamda hər kəs öz əşyalarını yerbəyer etməyə başladı. Gəminin içərisində qab-qaşıqların, kiçik ləvazimatların formasına uyğun xüsusi yerlər var idi. Əşyaları dağılmamaq üçün həmin yerlərə qoyduq. Laboratoriya aparatları və cihazlarını isə içəridə iplə sarıdıq. Qapıları bağlayıb hamımız yatağa uzandıq. Hər birimizdə qoruyucu qurşaq var idi. Elə bu an gəminin dörd tərəfinə dəyən zərbələrin bizi vahiməyə salan səsini eşitdik. Gəmi suyun üzərində kibrit qutusu kimi yırğalanmağa başladı. Sunaminin ardınca baş verən fırtına okeanın dalğalarını sərtləşdirmişdi. Gəmi hər dörd tərəfdən qalxıb-enirdi. Göyərtə suyun səviyyəsinə qədər əyilib-qalxırdı. Bayırda dumançəndən başqa heç nə görünmürdü. “Vityaz” böyük və güclü burulğanın içərisində idi. Bizdə qorxudan peşmanlıq hissi yaranmışdı. Amma gəmini idarə edənlərin yüksək məharəti onu batmağa qoymurdu. Onlar yaxşı bilirdilər ki, gəmini hara və necə döndərmək lazımdır. Kiçik səhv nəticəsində burulğan “Vityaz”ı sürətlə 5 kilometr dərinliyi olan okeanın dibinə apara bilərdi. Bu vəziyyət üç gün davam etdi. Həmin müddətdə nə xörək bişirə, nə də tədqiqatlar apara bildik. Konservlər və meyvələrlə qidalanırdıq. O qədər yırğalanırdıq ki, ürəkbulanmadan söhbət də edə bilmirdik, sakit uzanıb fırtınadan nə zaman qurtulacağımızı düşünürdük. Zərbələrin vahiməli səsləri ara vermirdi. Peyk vasitəsilə daim hava haqqında proqnozu izləyirdik. Kapitan xəbər verəndə ki, təhlükədən sovuşduq, hamı biri-birini təbrik etdi. Okean sakit, dümdüz, göyün üzü tam aydın idi. Günəş sevincimizə şərik idi. Ertəsi gün tədqiqatlar apardıqdan sonra cənub-şərq istiqaməti ilə Cəbəllütarik boğazına qayıdıb geri dönəndə anladıq ki, doğrudan da, Bermud üçbucağından sağ qayıtmaq mümkün imiş”.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

## Bilirsinizmi...



- Solar Mass, yəni günəşin çəkisi mənasını verən bu söz əslində fizika alimləri tərəfindən bir ölçü vahidi olaraq istifadə edilir. Günəşin kütləsi Yerdən 333 min dəfə ağırdır. Lakin Kainatdakı qara dəliklər, qalaktikalar, planetlər o qədər böyük ölçüdədirlər ki, bunları da ifadə etmək üçün Günəşin kütləsi istinad olaraq götürülür;
- Bir insan bir gündə ortalama 23 min dəfə göz qırpar, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyəri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər;
- Hindistanda 50 milyon meymun var;
- Mavi gözlü ağ pişiklərin 65-85 faizi kardır;
- Bir toyuq ildə orta hesabla 190 yumurta verir;
- Kasablanka adı ispanca “ağ ev” mənasını verir;
- İlk reklam 1477-ci ildə İngiltərədə olub. Bu, dua kitabının reklamı idi;
- İnsan beynində 1 saniyədə 100 000 kimyəvi reaksiya baş verir;
- Uşaqlar diz qapaqsız doğulur, qapaqlar 2-6 yaşda yaranır;
- Biz ən uzaq görünən ulduza baxarkən 4 milyard il keçmişə baxırıq. Ondan gələn və saniyədə, demək olar, 300 min kilometr sürətlə hərəkət edən işıq bizə yalnız uzun illərdən sonra çatır.

# Özü öyrənən robot

**Lobaçevski adına Nijeqorod Dövlət Universitetinin alimləri neyron şəbəkəsi sayəsində tamamilə özü öyrənən robot hazırlayıblar.**



Özü öyrənən robotun əsasını ultrasəs texnologiyası əsasında işləyən məsafə datçikləri və toxunuş datçiklərindən ibarət həssas bamperlər təşkil edir. Sözügedən datçiklər robota sağ və sol tərəflərdən olan maneələri hiss etməyə imkan verir, sensor neyronların aktivliyi isə bu datçiklərin aktivliyindən birbaşa asılıdır.

Təlim prosesi insanın öyrənməsinə oxşayır - irəlidə maneə olması barədə datçiklərdən informasiya alan robot onu keçmək üsullarını axtarıb tapmağa çalışır. İlk uğurlu cəhddən sonra robot bu alqoritmi düzgün kimi qeydə alır və ondan növbəti toqquşmaların qarşısının alınması üçün istifadə edir.

# İçərişəhər yaşıllıqlar məkanına çevrilib









İnsanın təbiəti belədir: harada, hansı məkanda olmasına baxmayaraq, gözəlliyə can atır. Hətta bir arşın torpaqda da möcüzə yaratmağa qadirdir. Odur ki, bu gün İçəri şəhər və bağ-bağça sözlərinin yanaşı səslənməsi təəccüblü deyil.





İçərişəhərin küçələri dar, həyətləri kiçik olsa da, bu, sakinlərin yaşıllıq, gözəllik yaratmaq istəyinə maneə törədə bilməyib. Yəni indi İçərişəhər bağ-bağçaları ilə daha əsrarəngiz, diqqətçəkən olub. Küçələr boyu əkilmiş dekorativ ağaclar, gül-çiçək gözü-könlü oxşayır. Həyətlərdə isə müxtəlif meyvə ağacları əkilib. Hər kəs evinin qarşısındakı sahənin imkan verdiyi qədər yaşıllıq yaradıb. Nar, əncir, iydə, tut, zeytun və digər ağaclar həm kölgəlik yaradır və sərinlik bəxş edir, həm də bar-bərəkət gətirir.

***Foto Ağaəli MƏMMƏDOVUNDUR,***
***“Azərbaycan”***

# Beynəlxalq aləm

## Tramp Kubaya qarşı embarqonun müddətini uzatdı



ABŞ Prezidenti Donald Tramp Kubaya qarşı qüvvədə olan ticarət məhdudiyyətlərinin müddətini 2020-ci il sentyabrın 14-dək uzatmaq barədə qərar qəbul etmişdir. Trampın müvafiq bəyanatını Ağ evin mətbuat xidməti yaymışdır.

Bəyanatda deyilir ki, Kubaya qarşı embarqonun bir il müddətinə uzadılması ABŞ-ın milli maraqlarına cavab verir. Həmin qərarla Tramp özünün embarqoya riayət olunması və ayrı-ayrı sövdələşmələrə icazə verilməsində hərəkət azadlığı verən səlahiyyətlərini uzatmışdır. Söhbət hələ 1971-ci ildə qüvvəyə minmiş qanundan gedir. Bu qanun ABŞ-a qarşı düşmənçilik əhvali-ruhiyyəsində olan ölkələrlə ticarəti məhdudlaşdırmağa imkan verir.

Hazırda Kuba yeganə ölkədir ki, həmin qanun ona şamil olunur. 2008-ci ildə KXDR bu siyahıdan çıxarılmışdır. Eyni zamanda Pxenyana qarşı digər sərt sanksiyalar tətbiq olunmuşdur.

## İspaniyanın cənub-şərqi su altında qalmışdır



İspaniyanın cənub-şərqinə yağan güclü leysan yağışlar insan tələfatına gətirib çıxarmışdır. Son məlumata görə, artıq 5 nəfər həlak olmuşdur. Bu barədə “Cadena Ser” radiostansiyası xəbər verir.

Məlumata görə, 3500-dən çox adam təxliyə edilmişdir. Təbii fəlakət rayonlarına 1150 hərbçi və texnika, o cümlədən helikopterlər göndərilmişdir.

İspaniya Müdafiə Nazirliyi bildirmişdir ki, ən ağır vəziyyət Valensiya muxtar rayonunda, Almeriya vilayətində və Mursiya muxtar rayonunda yaranmışdır. Onlarla avtomobil yolu, bəzi hava limanları bağlanmış, dəmir yolunun hərəkəti pozulmuşdur. Məktəblərdə dərslər ləğv edilmişdir.

## Səudiyyə Ərəbistanında neftayırma zavodlarına havadan hücum edilib



Səudiyyə Ərəbistanının şərqində “Saudi Aramco” dövlət şirkətinə məxsus iki neftayırma zavodu pilotsuz təyyarələrin hücumuna məruz qalmışdır. Bu barədə krallığın Daxili İşlər Nazirliyi məlumat vermişdir.

Nazirliyin nümayəndəsi qeyd etmişdir ki, iki zavodda yanğın başlamışdır. Şirkətin yanğınsöndürmə xidməti alovu nəzarət altına almağa müvəffəq olmuşdur. Səlahiyyətli orqanlar hadisəni təhqiq edir. Tələfat barədə məlumat verilmir.

Bu arada Yəmənin qiyamçı “Ənsar Allah” təşkilatı (hövsilər) Səudiyyə Ərəbistanının dərinliyində pilotsuz təyyarələr vasitəsilə həyata keçirdiyi ən böyük əməliyyatlardan birinin təfsilatını açıqlayacağını bəyan etmişdir. Xatırladaq ki, hövsilər bu il mayın 14-də krallığın qərbində “Saudi Aramco”nun nasos stansiyasını vurmuşdular.

## Naməlum ölümcül xəstəlik tapıldı



Tanzaniyanın qadın sakini naməlum xəstəlikdən dünyasını dəyişmişdir. Bu barədə Dünya Səhiyyə Təşkilatı (DST) məlumat vermişdir.

Təşkilat təcili təhqiqat aparmaq üçün ölkəyə mütəxəssislər komandası göndərmişdir. Bundan əlavə, DST Tanzaniya Səhiyyə Nazirliyindən hadisə barədə əlavə məlumat verməyi xahiş etmişdir.

ABŞ-ın Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin nümayəndəsi Castin Uilyams “Röyter” agentliyinə bildirmişdir ki, vəfat etmiş qadında Ebola virusu, Denge qızdırması və malyariya simptomları müşahidə olunmuşdur. “Lakin güman ki, bu, nəsə başqa bir şeydir” deyə o, narahatlığını ifadə etmişdir.

Ötən ay məlum olmuşdur ki, Tanzaniya ilə qonşu olan Konqo Demokratik Respublikasında ötən il avqustun 1-dən cari ilin fevral ayınadək Ebola virusunun törətdiyi xəstəlikdən 100 nəfərə yaxın uşaq dünyasını dəyişmişdir. Növbəti yarım il ərzində bu rəqəm dörd dəfə artmış və indiyədək 500-dən çox uşaq xəstəliyin qurbanı olmuşdur.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

İsmayıllıdan Mirdaməd Sadıqov “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9033
Sifariş 3010
Qiyməti 40 qəpik